Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir

**Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi** münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 125 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. 1977-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində Ermənistan Respublikası 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etmiş və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdir.

Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilmişdir. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdir.

Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və

qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə qərara alıram:

1. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 7 may 2021-ci il**

"Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.
Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.
Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.
Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.
Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir

Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.
Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır".
Sərəncama əsasən, 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan edilib.

**Azərbaycan Respublikası Prezidenti**
**İlham Əliyev**

## GİRİŞ

## Şuşa işğaldan azad edildi
## Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti

-Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!
Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.
İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan

tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik. 30 ilə yaxın mənasız danışıqlar bizi heç bir nəticəyə yaxınlaşdırmadı. Əzəli tarixi torpaqlarımız 30 ilə yaxın işğal altında qaldı. Danışıqlar prosesində Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyirdi, sadəcə olaraq, status-kvonu möhkəmləndirmək, əbədi etmək istəyirdi. Bu illər ərzində dəfələrlə Azərbaycana müxtəlif güc mərkəzlərindən göndərilən siqnallar bizi vəziyyətlə barışmağa sövq edib. Ancaq biz qətiyyət, cəsarət, siyasi iradə göstərərək Azərbaycan xalqının maraqlarına cavab verməyən heç bir razılaşmaya getmədik. Mən dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan etmişdim ki, torpaqlarımızın, ərazi bütövlüyümüzün bərpa edilməsi bizim əsas vəzifəmizdir və biz bu vəzifəni icra edirik. Danışıqlar heç bir nəticə vermədi. Sadəcə olaraq, bizim başımızı aldadırdılar, sadəcə olaraq, məsələni dondurmaq istəyi müşahidə olunurdu. Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Həm birinci Qarabağ, həm ikinci Qarabağ – Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm. Yaralı

soydaşlarımıza Allahdan şəfa diləyirəm. Biz xalqımızın, əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik. İşğalçıları torpaqlarımızdan qovuruq və qovacağıq!

Şuşa 28 il yarım işğal altında idi. Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir. Bir neçə il bundan əvvəl - 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır.

Biz güc toplayırıq, məqsədyönlü şəkildə, yorulmadan, bütün təzyiqlərə baxmayaraq, güc toplayırıq və toplamışıq. İqtisadi güc. Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin

edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqilik və bu, bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda, Ordumuzu gücləndirək. Biz Ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazarlardan alırıq. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik? Biz ölkə daxilində uğurlu siyasət apararaq hesab edirəm ki, ölkəmizdə dünya üçün çox nadir inkişaf modelini yaratdıq. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi.

Qələbəmizin üçüncü əsas amili beynəlxalq səviyyədəki uğurlarımızdır. Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Sübut etdik ki, əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Sübut etdik ki, erməni əhalisi bu torpaqlara 200 il bundan əvvəl köçürülübdür, necə köçürülübdür, hansı məqsədlərlə köçürülübdür, hamısını biz dünya ictimaiyyətinə təqdim etdik, sübutlarla, faktlarla. Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Dünyanın bütün aparıcı təşkilatları, bütün beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul edibdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, Avropa Parlamentinin qətnamələri və digər beynəlxalq təşkilatların qərar və qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Bu, bizə əlavə güc verdi. Əgər biz bunu etməsəydik, bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi. Biz bu illər ərzində bir çox ölkələrlə səmimi, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik, bir çox ölkələr Azərbaycanı strateji tərəfdaş hesab edir və artıq bu ifadə beynəlxalq sənədlərdə öz əksini tapır. Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu

etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi.
Şuşa işğal altına düşəndə bizim əsas problemlərimiz həm o idi ki, ordumuz yox idi, rəhbərlik öz vəzifə borcunu yerinə yetirə bilmirdi. Beynəlxalq müstəvidə Azərbaycan demək olar ki, bütün ölkələrlə münasibətləri gərginləşdirmişdi. Biz demək olar ki, təcrid edilmiş vəziyyətdə idik. Ancaq bu gün biz Ermənistanı təcrid edilmiş vəziyyətə saldıq. Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi.
Nəhayət və ilk növbədə, ordu quruculuğu. Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda, diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda, mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə

daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar. Budur bizim fəaliyyətimiz. Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması. Biz demək olar ki, bütün hərbi şəhərciklərimizi, hərbi bazalarımızı yenidən qurduq və onlar ən yüksək standartlara cavab verir. Əlbəttə, ilk növbədə, döyüş qabiliyyəti. Döyüş qabiliyyəti artdı. Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlar bütün dünyaya bizim gücümüzü göstərdi.

Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!

Bax, belə ordu yaratmışıq biz! Deyirdik işğalçılara, deyirdik, düz yola gəlin, işğala son qoyun, hələ ki, gec deyil. Ona görə bizim bütün dövrlərdəki siyasətimiz birmənalı olub. Demişik ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, hərbi yolla məsələni həll edəcəyik. Mən bunu dəfələrlə demişəm. Buna görə də tənqid olunmuşam bəzi ölkələr tərəfindən. Mən demişəm ki, bəs bizim

torpaqlarımız məgər hərbi yolla zəbt edilməyibmi? Ermənistan bizim torpaqlarımızı sülh yolu iləmi zəbt edib? Hər bir ölkənin özünümüdafiə hüququ var. Bu hüququ bizə BMT Nizamnaməsi verir. Mən demişdim, əgər görsəm ki, danışıqlar artıq tamamilə səmərəsizdir, bizim başqa yolumuz qalmayacaq. Bunu hamı bilsin - düşmən, onun havadarları və bu məsələ ilə məşğul olan vasitəçilər. Həmişə sözümün üstündə durmuşam. Azərbaycan xalqına nə demişəmsə, onu da etmişəm. Bu məsələdə də sözümün üstündə durdum və artıq biz Qələbəni qeyd edirik.
Sentyabrın 27-dən bu günə qədər 200-dən çox şəhər, kənd, qəsəbə işğaldan azad edildi. O cümlədən Füzuli şəhəri, tamamilə darmadağın edilmiş, bir dənə də salamat bina qoymayıb mənfur düşmən. Cəbrayıl tamamilə dağıdılmış. Qubadlı, Zəngilan tamamilə dağıdılmış. Kəndlər, şəhərlər. Hadrut qəsəbəsi, Suqovuşan qəsəbəsi və bu gün Şuşa şəhəri.
Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Ermənistan artıq öz acı məğlubiyyətini etiraf edib, özünü alçalda-alçalda, xalqını təhqir edə-edə. Ermənistan rəhbərliyi indi dünya ölkələrindən yardım istəyir, hərbi yardım istəyir, silah, texnika istəyir. Bəs, hanı sənin yenilməz ordun? Məhv etmişik onu. Onların bütün sözləri, onların bütün bəyanatları mif idi, yalan idi. Yenilməz ordu Azərbaycan Ordusudur! Bunu döyüş meydanında göstərir, düşməni

torpaqlardan təkbaşına qovur. Otuz il ərzində milyardlarla dollar xərclənib oraya, istehkamlar qurulub, mühəndislik qurğuları inşa edilib. Amma hamısını vurub dağıtmışıq - mənəvi ruh, güc hesabına, birlik hesabına!

Bir daha demək istəyirəm ki, bizim zəfər yürüşümüz davam edir. İşğal edilmiş bütün torpaqlardan düşmən qüvvələri çıxarılmalıdır. Bu, bizim tələbimizdir. Beynəlxalq norma və prinsiplər, beynəlxalq təşkilatların qərar, qətnamələri bunu tələb edir.

Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq. Biz mülki vətəndaşlara qarşı heç vaxt müharibə aparmamışıq, bu dəfə də aparmamışıq. Baxmayaraq ki, mənfur düşmən 93 mülki şəxsi namərd atəşlə öldürüb, 400-dən çox mülki şəxs yaralanıb. Amma mən dedim yox, biz azərbaycanlıyıq! Biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq! Onların ordusunu məhv etmişik, texnikasını məhv etmişik, məhv edirik və edəcəyik. Düşməni qovuruq və qovacağıq!

Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad

etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!

Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

**Əziz Şuşa, sən azadsan!**

**Əziz Şuşa, biz qayıtmışıq!**

**Əziz Şuşa, biz səni dirçəldəcəyik!**

**Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

## Bölmə I

## Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, sən azadsan!

**Sən mənim köksümdə çarpan ürəksən,**
**Mən sənin köksündə - kiçik bir zərrə.**
**Mənə qanad verən odlu diləksən,**
**Adına, özünə Vətən deyirəm,**
**Çölünə, düzünə Vətən deyirəm...**

Şuşa şəhərinin əsasının qoyulması Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşirin (1748-1763) adı ilə bağlıdır. 1748-ci ildə Bayat və 1751/52-ci ildə salınmış Şahbulaq qalalarının etibarlı olmadığını görən Pənahəli xan «dağların içində, möhkəm və keçilməz yerdə … əbədi və sarsılmaz qala» tikdirmək qərarına gəldi. Xanlığın mərkəzi hələ Şahbulaq qalasında olarkən dəniz səviyyəsindən 1300-1600 m hündürlükdə yerləşən əlçatmaz dağ yaylasında yeni şəhər-qalanın tikinti işlərinə başlanıldı. Əhalinin təhlükəsizliyi üçün zəruri işlər görüldükdən sonra 1756/57-ci ildə Pənahəli xan Qarabağ xanlığının paytaxtını Şahbulaq qalasından yeni

salınmış şəhər-qalaya köçürdü. Bu şəhər ilk dövrlərdə öz banisinin adı ilə Pənahabad, onun ölümündən sonra isə yerləşdiyi relyefə uyğun olaraq Şuşa adlandırıldı. Şəhər üç tərəfdən sıldırım qayalarla, dördüncü tərəfdən isə möhkəm qala divarları ilə əhatə olunmuş, uzun müddət alınmaz qala kimi şöhrət qazanmışdı. Şuşa şəhərinin müdafiə qurğularından bəhs edən müəlliflərdən biri yazırdı ki, «Ağa Məhəmməd xan Qacarın dövründə Şuşa kiçik gözəl şəhərdi, möhkəm hasarının hündurlüyü şəhərin bütün tərəflərində bərabərdi, hasarın elə yerləri var idi ki, oradan mücahimlərin (hücum edənlərin-red.) başına daş, qaynar su və ya ərimiş qurğuşun tökmək olurdu». Şəhərin xarici aləmlə əlaqəsi Gəncə, Ağoğlan və İrəvan qapıları vasitəsilə həyata keçirilirdi.

Şuşanın bir şəhər kimi formalaşması 3 əsas mərhələdən keçmişdir. Pənahəli xanın hakimiyyət dövrünü (1748-1763) əhatə edən birinci mərhələdə Şuşanın ilk böyük məhəlləsi, sonralar Aşağı məhəllə adlandırılan Təbrizli məhəlləsi salınmışdır. Əhalisinin əksəriyyətini vaxtilə Təbriz və Ərdəbildən Bayat qalasına köçürülmüş sənətkarlar təşkil edən bu məhəllədə aşağıdakı kiçik məhəllələr – Çuxur, Qurdlar, Culfalar, Seyidli, Quyular, Merdinli, Hacı Yusifli, Qazançalı və Çöl qala məhəllələri yerləşirdi. Şuşanın bir şəhər kimi formalaşmasının ikinci mərhələsi İbrahimxəlil xanın hakimiyyəti dövrünü (1763-1806) əhatə edir. Bu mərhələdə Şuşanın 8 kiçik məhəllədən (Xanlıq, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçi, Hamam qabağı, Təzə) ibarət olan ikinci böyük məhəlləsi – Yuxarı məhəllə formalaşmışdır. Şuşa şəhərinin formalaşmasının üçüncü mərhələsi Qarabağ xanlığının 1806-cı ildə Rusiya imperiyası tərəfindən işğal edilməsindən

sonra başlamış və daha uzun müddət davam etmişdir. Şəhərdəki bütün məhəllələrin adları bu şəhəri yaradan, onun aborigen əhalisi olan Azərbaycan türklərinə məxsus idi.



XVIII əsrin ikinci yarısı Şuşa şəhəri tarixinin ən şanlı səhifələrindəndir. Bu dövrdə şəhər dəfələrlə hücumlara məruz qalsa da, düşmən qarşısında baş əyməmiş, özünün alınmaz qala olduğunu sübut etmişdi. 1757-ci ildə Məhəmmədhəsən xan Qacar, 1760-cı ildə Fətəli xan Əfşar, 1795-ci ildə Ağa Məhəmməd xan Qacar kimi məşhur sərkərdələr də qəhrəman Şuşa şəhərini ala bilməmişdilər. Pənahəli xanın və İbrahimxəlil xanın mahir azərbaycanlı ustaların əli ilə yaratdıqları müdafiə qurğuları düşmən hücumlarının dəf edilməsində mühüm rol oynamışdı.

Şuşa uzun müddət Qarabağın inzibati mərkəzi olmaqla yanaşı, həm də çox mühüm iqtisadi mərkəz idi. Əsas ticarət və sənətkarlıq obyektləri şəhərin mərkəzi rolunu oynayan Aşağıbazar və Meydan adlandırılan ərazidə cəmləşmişdi. Burada çoxlu ticarət dükanı və sənətkar emalatxanası ilə yanaşı, bir neçə karvansara və hamam da tikilib istifadəyə verilmişdi.

Şuşa şəhəri XVIII əsrin sonlarından başlayaraq bütün Cənubi Qafqazın mühüm ticarət mərkəzlərindən birinə çevrilmişdi.

Tacirlər Şuşaya Dərbənddən qızıl boya, Şəkidən silah, ipək, mahud, Bakıdan neft və zəfəran, Naxçıvandan duz və bez parça, Gəncədən zəy və meyvə gətirirdilər. Şuşanın ticarət əlaqələrində Cənubi Azərbaycan və İran şəhərləri, habelə Osmanlı imperiyası, Rusiya, Hindistan və Avropa ölkələri mühüm rol oynayırdılar. Şuşalı tacirlər Almaniyanın məşhur Leypsiq, Rusiyanın Nijni-Novqorod yarmarkalarının daimi iştirakçıları idilər.

Şuşa şəhəri özünün sənətkarlıq məhsulları ilə də şöhrət qazanmışdı. XIX əsrin əvvəllərində şəhərdə 50-dən artıq sənət sahəsi üzrə ixtisaslaşmış böyük sənətkarlar ordusu fəaliyyət göstərirdi. Onların arasında toxucular, papaqçılar, çəkməçilər, dərzilər, dülgərlər, həllaclar çoxluq təşkil edirdi. Şəhərdə toxuculuq və xalçaçılıq xüsusilə yüksək inkişaf səviyyəsinə çatmışdı. XIX əsrin əvvəllərində burada müxtəlif növ parçalar istehsal edən 500 toxucu dəzgahı işləyirdi. Kapitalist münasibətlərinin sürətli inkişafı Şuşada ipəkçiliyin fabrik-zavod istehsalı səviyyəsinə yüksəlməsinə gətirib çıxardı. Artıq XIX əsrin 60-cı illərində şəhərdə illik istehsal gücü 78 min rubla bərabər olan 16 ipəksarıma fabriki fəaliyyət göstərirdi.

Şuşa Azərbaycanda xalça istehsalının da mühüm mərkəzlərindən biri idi. XIX əsrin sonlarında dünya bazarlarında Azərbaycan xalçalarına tələbatın artması Şuşada xalçaçılığın daha da inkişaf etməsinə səbəb oldu. Bu dövrdə şəhərdə hər il ümumi dəyəri 50 min rubla bərabər olan xalça məmulatı istehsal edilirdi. Şuşa xalçaları bədii xüsusiyyətlərinə görə iki böyük qrupa – ornamentli və süjetli xalçalara bölünürdü. Əsasən, XVIII-XIX əsrlər üçün xarakterik olan ornamentli Şuşa xalçalarında nəbati ünsürlər üstünlük təşkil edirdi.

Şuşada boyaqçılıq, gön-dəri məmulatı istehsalı və metal işləmə sənətləri də yüksək inkişaf səviyyəsinə çatmışdı. Şuşalı boyaqçılar müxtəlif növ bitkilərdən istifadə edərək 50-yə qədər

rəng və rəng çaları almağı bacarırdılar. XIX əsrin sonu - XX əsrin əvvəllərində Şuşada fəaliyyət göstərən 8 boyaq xananın illik istehsal gücü 69500 rubla çatırdı. Elə həmin dövrdə şəhərdə 200 nəfərə yaxın sənətkar gön-dəri məmulatı istehsalı ilə məşğul olurdu. XIX əsrin sonlarında Şuşada 78 nəfər zərgər müxtəlif növ baş, boyun, sinə, qulaq, bel, qol və barmaq üçün zərgərlik məmulatları hazırlayırdılar.

Azərbaycanlılar tərəfindən salınan və uzun müddət əhalisinin mütləq əksəriyyətini Azərbaycan türkləri təşkil edən Şuşa şəhəri XIX əsrin əvvəllərində baş vermiş Rusiya işğalından sonra ciddi demoqrafik dəyişikliklərlə üzləşdi. Azərbaycanın digər yaşayış məntəqələri kimi, Şuşaya da ermənilərin köçürülməsinə başlanıldı. Çar hökumətinin himayəsi ilə Şuşada müvəqqəti də olsa say üstünlüyünə nail olan ermənilər şəhərin köklü sakinləri olan azərbaycanlıları sıxışdırmağa başladılar. 1905-1906-cı illərdə azərbaycanlılara qarşı qanlı terror və soyqırımı təşkil edildi. Ermənilər bu əməllərini 1918-1920-ci illərdə də təkrar etməyə cəhd göstərsələr də Azərbaycan Xalq Cümhuriyyətinin silahlı qüvvələri tərəfindən dəf edildilər.

Sovet hakimiyyətinin qurulması ilə Şuşanın fəlakətli günləri başlandı. Dağlıq Qarabağda rəhbər vəzifələri ələ keçirən ermənilər şəhərin azərbaycanlı əhalisinə qarşı repressiyalara başladılar. 1923-cü ildə DQMV-nin yaradılması və Xankəndinin onun mərkəzi seçilməsi ilə Şuşa Qarabağın inzibati mərkəzi olmaq funksiyasından məhrum edildi. Bununla da Şuşa şəhərinin və orada yaşayan azərbaycanlıların vəziyyəti xeyli pisləşdi. Vilayət rəhbərliyinin ögey münasibəti nəticəsində şəhər sürətlə tənəzzül etməyə başladı. Azərbaycan xalqının tarixi-memarlıq abidələrinin bir çoxu uçurdulub dağıdıldı. Əhalinin sayı təxminən, 50 il ərzində 3 dəfədən də çox azaldı. Belə ki, 1917-ci ildə Şuşada 43869 nəfər əhali yaşadığı halda, 1970-ci ildə onların sayı azalıb 13664 nəfərə enmişdi.

Şuşanın yenidən dirçəlməsi yalnız 1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gətirilməsindən sonra mümkün oldu. 1977-ci ildə Azərbaycan SSR Nazirlər Soveti «Şuşa şəhərinin tarixi hissəsinin tarix-memarlıq qoruğu elan etmək haqqında» qərar qəbul etdi. Şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün mühüm tədbirlər həyata keçirildi. Bütün bu tədbirlər nəticəsində şəhərdə əhalinin sayı artaraq 1989-cu ildə 20579 nəfərə çatdı.

Lakin Şuşada başlanmış bu dirçəliş uzun çəkmədi. 1992-ci il mayın 8-də şəhər erməni silahlı qüvvələri tərəfindən işğal olundu. İşğal prosesində və işğaldan keçən 20 il ərzində Şuşanın tarixi-memarlıq abidələri erməni vandalları tərəfindən amansızcasına dağıdıldı və bu gün də dağıdılmaqda davam edir.

## Yubiley tədbirlərinin keçirilməsi

Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi böyük tarixi əhəmiyyətə malikdir.

"2022-ci ilin Azərbaycanda "Şuşa İli" elan edilməsi Şuşanın tarixi keçmişi, bu günü və gələcəyi ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyətə malikdir. Bu həm də bütün dünyaya bir mesajdır. Dünya Azərbaycanın mədəniyyət paytaxtının əsil sahiblərinə qaytarıldıqdan sonra həyata keçirilən nəhəng layihələrin şahidi olacaqdır".

44 günlük Vətən müharibəsindən sonra, postmüharibə ili olan 2021-ci ilin ardınca 2022-ci ilin "Şuşa İli" elan edilməsi İlham Əliyevin bir daha müdrikliyinin nəticəsidir.

"Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 yanvar tarixində imzaladığı qərara əsasən bu il respublikamızın hər bir bölgəsində, təhsil, mədəniyyət

ocaqlarında tədbirlər planı hazırlanmışdır. Tədbirlər planının hazırlanmasında məqsəd keçiriləcək toplantıların, formların, konfransların  dünya ictimaiyyətinə bir daha çatdırılması, Şuşanın Azərbaycan xalqı tərəfindən əsası qoyulan bir məskəndir mesajı verilməsidir. Şuşa  Qarabağın inzibati, iqtisadi mərkəzi, inkişaf etmiş şəhəri, Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biridir. Şuşa əbəs yerə Rusiya və dünya ictimaiyyəti tərəfindən “Şərqin konservatoriyası” adlandırılmayıb.






Aşağı Gövhər ağa məscidi 1762





Alban kilsəsi 1984



M.P. Vaqifin məqbərəsi



Xan Şuşinskinin evi



Cıdır düzü



Qala divarları



Şuşa şəhərinin görünüşü



Saatlı məscidi





Bülbülün heykəli



Xan qızı Natəvan





Şuşa şəhərinin görünüşü









+



İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi möhtəşəm hadisəyə çevrildi və ölkənin şanlı tarixinin qızıl salnaməsinə yazılacaq. 2022-ci il Şuşanın həyatında ən yaddaqalan il olacaq. Bu il parlaq və təntənəli tədbirlərlə - festivallar, konsertlər, müsabiqələr, sərgilər, yaradıcılıq layihələri, poeziya gecələri, yubileylərlə yadda qalacaq, qədim mədəniyyətimizin və incəsənətimizin bütün palitrası təqdim olunacaq. Hər bir azərbaycanlı üçün müqəddəs olan bu şəhərə tez-tez səfərlər təşkil olunacaq, o cümlədən xarici qonaqlar üçün. Şuşa öz əzəmətini qaytaracaq və bütün dünya bu şəhərdə baş verən möhtəşəm hadisələri izləyəcək.Və beləliklə  tədbirlər planını əlimizdə əsas tutaraq F.Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq, geniş, maraqlı, yaadaqalan tədbirlər planı hazırlamışıq. Tədbirlər planına əsasən kitabxanada "Şuşa ili" ilə bağlı foto sərgilərin, kitab sərgilərinin  keçiriməsi nəzərdə

tutulmuşdur. Qarabağın dilbər guşələrindən olan Şuşa şəhərinin möhtəşəm yerləri, tarixi abidələri sərgidə nümayiş oluna bilər. Sərgiyə müxtəlif başlıqlar vermək olar: "Hər Azərbaycanlının qəlbində bir Şuşa var", "Şuşa milli mədəniyyətimizin beşiyi", "Hər daşı, qayası bir tarix olan Şuşa", "Bir tarixlik şəhər", "Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir", "Şuşam, Cıdır düzüm", "Şuşa bütün azərbaycanlılar üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir", "Şuşa Qarabağın tacıdır", "Şuşadan başlayan tarix", "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir" , "Ruhumuzun ünvanı Şuşa" və s. "Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir" adlı foto sərgini və "Ruhumuzun ünvanı Şuşa" adlı kitab sərgisinin nümunəsini sizlər üçün təqdim edirik.

1. Başlıq: **"Ruhumuzun ünvanı Şuşa"**

2. Görkəmli şəxsiyyətlərin Şuşa haqqında söylədikləri

3.Qarabağ, Şuşa haqqında kitabların nümayişi

4.Qarabağ, Şuşa abidələrinin foto sərgisi

5.İşğaldan azad olmuş rayonlarımız haqqında hazırlanmış kataloqların, bukletlərin nümayişi

5. Şuşa şəhərinin görkəmli şəxsiyyətləri haqqında foto sərgi və məlumatlar

6. Dövrü mətbuatda nəşr olunmuş qəzət və jurnal materiallarının kartotekası

7. Şuşa şəhərinə aid bəstələnmiş musiqilərin notları

6. Şuşa haqqında şeir

Söz vermişdim gələcəyəm,
Gəlmişəm qoynuna, Şuşam.
Aç mübarək qollarını,
Sarılım boynuna, Şuşam.

Vüsal gəldi, həsrət bitdi,
Düşmən cəhənnəmə getdi,
Millət arzusuna yetdi,
Gəlmişik toyuna, Şuşam.

## Kitabların nümayişi













Şuşa


SOLMAZ AMANOVA
ŞUŞANIN
SEHRLİ AÇARLARI
everest


ŞUŞA
Azərbaycanın
mədəniyyət
paytaxtı
Şuşa


ZƏFƏR YOLU:
QARABAĞ SAVAŞINDAN
ŞUŞA BƏYANNAMƏSİNƏDƏK


İlham Əliyev:
“Əziz Şuşa,
biz qayıtmışıq!”


Flora Xəlilzadə
Ruhumuzun ünvanı
ŞUŞA







https://drive.google.com/file/d/1wqrh0Qm_R6S-04S7v1U_ON7nL2IEWaGB/view

https://drive.google.com/file/d/1zCzAkBJ1per9vJsJB6CpwW7NxxhU_RwB/view

https://drive.google.com/file/d/1lweZNLtZcSFlpPIzTj7MrbedLn39he-b/view

https://drive.google.com/file/d/1gM1GIe5Ex3OuigRgM-GpAb3bOyCiITvn/view

**Görkəmli şəxsiyyətlərin Şuşa haqqında söylədikləri**

1.Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir.

**Heydər Əliyev,**
**Ümumilli lider**

2.Şuşasız, Ağdamsız, ümumiyyətlə, Qarabağsız Azərbaycan yoxdur.

**Heydər Əliyev,**
**Ümumilli lider**

3.Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycanın daim qorunması, saxlanılması üçün Şuşa şəhərini, qalasını yaradıblar; Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır.

**Heydər Əliyev,**
**Ümummilli lider**

4.Əziz hərbçilər, noyabrın 8-i xalqımızın tarixində əbədi qalacaq. Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

5.Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm. O yol indi açılıbdır, yol yox idi. Dağlardan, meşələrdən, dərələrdən keçərək, onlarla kilometr məsafəni qət edərək qəhrəman Azərbaycan hərbçiləri yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edib, Şuşa şəhərinə yaxınlaşıb, Daşaltı kəndini azad edib və ondan sonra Şuşanı işğalçılardan azad edib.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

6.Biz qalib xalqıq. Mən Şuşaya son dəfə 39 il bundan əvvəl gəlmişəm. 39 il bundan əvvəl iki dəfə gəlmişəm və birinci dəfə yanvarın 14-də gəlmişəm. Bax, bu gün, yanvarın 14-də yenə də buradayıq. Bu dəfə müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran Ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq! Biz Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndlərimizi bərpa edəcəyik. Dağıdılmış bütün tarixi abidələrimizi bərpa edəcəyik.

**İlham Əliyev,**

**Azərbaycan Respublikasının Prezidenti**

7.“Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır. Şuşanın bərpası ilə əlaqədar işlərə artıq start verildi. Mənim göstərişimlə böyük heyət oraya ezam edildi. Deməli, yaşayış fondunun, tarixi abidələrin təftişi aparılmalı, vurulmuş ziyan dəqiq hesablanmalıdır və biz Şuşa şəhərinin restavrasiyasına başlamalıyıq. Ancaq yenə də vaxt itirmədən, ancaq, eyni zamanda, tələsmədən Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir”.

**İlham Əliyev,**

**Azərbaycan Respublikası Prezidenti**

8.“Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir!
Qarabağ Azərbaycandır!”

Şuşa Azərbaycanın unikal mədəniyyət mərkəzlərindən biridir. Təbii gözəllikləri ilə seçilən bu şəhər milli memarlığımızın və orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsidir. Milli-mənəvi dəyərlərimizi və musiqi ənənələrimizi daim yaşadan Şuşa mühüm iqtisadi, siyasi və mədəni əhəmiyyətə malik şəhər kimi təşəkkül tapanadək zəngin yol keçmiş, Qarabağ xanlığının mərkəzi olmaqla xalqımızın həyatında özünəməxsus rol oynamışdır. Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firidun bəy Köçərli, Əhməd bəy Ağaoğlu və digər görkəmli şəxsiyyətləri ilə tarixə düşən bu şəhər dünyada Azərbaycan muğamının beşiyi olaraq tanınır.

**İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti**

Dünyada bir çox şəhərlər var ki, onlar müəyyən mədəni və siyasi səbəblərdən rəmzə çevrilmişdir. Onların adlarını dilə gətirmək kifayətdir ki, hər birimizin yaddaşında həmin şəhərin obrazı yaransın. Hər bir azərbaycanlı üçün belə şəhər Şuşadır. Şuşa Azərbaycan mədəniyyətinin parlaq rəmzlərindən biri kimi olub və qalmaqdadır.

Bu gün o, həm də bizim torpaqlarımızın rəmzidir. Axı nə qədər ki, Şuşa erməni qoşunlarının işğalı altındadır, hər birimiz Şuşalıyıq.

**Mehriban Əliyeva, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**

Şuşanın təmiz havası, buz bulaqları, əsrarəngiz mənzərələri onun musiqi beşiyi kimi formalaşmasında mühüm rol oynamışdır. Bu torpaq dünya musiqi mədəniyyəti xəzinəsinə professional Azərbaycan musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəyovu, professional Azərbaycan vokal sənətinin banisi, dahi müğənni Bülbülü bəxş etmiş, neçə-neçə görkəmli bəstəkar və müğənni, şair və yazıçı məhz bu torpağın suyunu içmiş, onun ab-havasından qidalanmışdır. Buna görə də Şuşa "Qafqazın konservatoriyası" adını almış, vokal məktəbi kimi bütün Yaxın və Orta Şərqdə məşhur olmuşdur.

**Polad Bülbüloğlu, Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri**

Pənah xan yaxın adamları ilə hərtərəfli məsləhətləşdikdən sonra Şuşa şəhərini bina etdirdi. Şəhərin bina olunacağı yerdə axar su və bulaq yox idi. İmtahan üçün bir neçə quyu qazdırdı. O quyulardan su çıxdıqdan sonra Şuşa şəhərinin (1750-ci ildə) binası qoyuldu.

**Mirzə Adıgözəl bəy Qarabaği, Tarixçi**

Yeni qala tikdirmək üçün Pənah xan məmurlarla, din xadimləri ilə və Qarabağa yaxşı bələd olan dünya görmüş yerli sakinlərlə xeyli məsləhətləşdikdən sonra qərara gəldi ki, "Biz gərək dağlar içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daim açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz (bir an belə) kəsilməməlidir". Xanın göndərdiyi bələdçilər ətrafı hərtərəfli öyrəndikdən sonra şad xəbərlə qayıdıb ona bildirdilər ki, "Yeni tikiləcək qalanın içində iki-üç bulaqdan başqa axar su yoxdur. Güman olunan yerlərdə quyu qazdılar və bu quyulardan bol su çıxdı. Bu xəbər

Pənah xana çatdırıldı. Xan yaxın adamları ilə buraya gəldi, yerlə tanış olub, əzmlə qalanın binasını qoydu.

**Mirzə Camal Cavanşir Qarabaği Tarixçi, Qarabağ xanlığının baş vəziri**

ŞUŞA – Azərbaycanın mədəniyyət paytaxtı 58 Şuşa Azərbaycan xalqı üçün son dərəcə müqəddəs, ziyarətgah qədər əziz olan yurd yeridir. Çünki dünyanın bu füsunkar guşəsi bütün tarixi dövlərdə Azərbaycanın cənnəti olan Qarabağın sinəsində ona həyat verən bir ürək kimi döyünmüş, aranlı-yaylaqlı bütün Qarabağın mərkəzi olmuşdur.

**Yaqub Mahmudov, Akademik**

Şuşada bir gül bitir. Adına "Xarıbülbül" deyirlər. Onu da deyirlər ki, bu güldən ayrı heç yerdə əsər-əlamət tapılmaz. Çünki Xarıbülbül təkcə Şuşa torpağındakı məhəbbətdən cücərir. İlhamın və məhəbbətin Şuşadakı cövhəri ayrı heç yanda olmur və ona görə də Xarıbülbülü harada əkirsən ək, ayrı heç yanda bitmir.

**Yaşar Qarayev, Filologiya elmlər doktoru, professor**

...Şuşa təkcə özünün gözəl təbiəti ilə deyil, həmçinin yüksək, ahəngdar və poetik mədəniyyəti ilə də şöhrət qazanmışdır. Şuşanı əbəs yerə poeziya və musiqinin beşiyi adlandırmırlar. Demək olar ki, Azərbaycanın bütün məşhur oxuyanları və çalanları Şuşada doğulmuşlar.

**Səməd Vurğun, Xalq şairi**

Dağ başında yazı-yayı yaşıllığa, payızı-qışı dumana və qara bürünmüş bir şəhər (Şuşa) təssəvvür ediniz. Bu, mənim şəhərimdir.

**Yusif Vəzir Çəmənzəminli, Dövlət xadimi və yazıçı**

Azərbaycanın qədim diyarı Qarabağın baş şəhəri Şuşa səfalı havası, əsrarəngiz təbiəti, milli ənənələri, xalq sənəti dəyərlərini

yaşadan istedadlı sənətkarları ilə yanaşı, yeni üsullu məktəbləri, təlim-tərbiyəçilik məharəti ilə seçilən ustad müəllimləri ilə də məşhurdur.

**Əjdər Ağayev, Pedoqoq, professor**

Şuşa mənim nəzərimdə sevib-sevdirən, coşub-coşduran, yaşayıb-yaşadan Biblioqrafiya 59 canlı bir möcüzədir. Şuşa mənim və mənim xalqımın həyat eşqi, yaşamaq sevgisidir, mənəviyyat bulağı, milli xarakteridir. Şuşanı yalnız Azərbaycanın emblemi adlandıranlar səhv edirlər. Şuşa yer üzündə gözəlliyin, insanlığın, mədəniyyətin, cəsarət və hünərin, mərdlik və qəhrəmanlığın, sənətin, sözün, muğamın, nəhayət, böyük-kiçikliyin, ağsaqqal-ağbirçəkliyin, kişi-qadın davranışının, bir sözlə, yüksək, bəşəri mədəniyyətin emblemidir.

**Famil Mehdi, Filologiya elmlər doktoru, professor**

İtaliya vokal məktəbi Avropa musiqi tarixində hansı mövqeyi tutursa, Şuşa vokal məktəbi də Şərq musiqi tarixində eyni mövqeyi tutur.

**Firidun Şuşinski, Musiqişünas**

Şuşa! Bu ad nə qədər əziz, doğma, munis, və sevimli bir ad; nə qədər dilnəvaz və mehriban bir ana-vətəndir. Şuşa o qədər gözəl bir yerdir ki, onun adı qarşısında daim diz çökərək “xakipayini” hörmətlə öpmək mənim ən müqəddəs vəzifəm olub. Bu şəhərin uğrunda hər bir varlıqdan: candan, maldan, həyatdan və sairədən keçmək, al qanlara bulanmaq, məhv olmaq mənim üçün ən müqəddəs bir səadət və şərəfli bir haldır.

**Həsən İxfa Əlizadə, Mollanəsrəddinçi şair, dramaturq, nasir**

“Qala” adı ilə tanınmış Şuşa özü boyda canlı tariximizdir. Buradakı abidələr isə tariximizin yadigarı və səhifələridir. Şuşa abidələri xalqımızın keçdiyi şanlı və böyük həyat yolundan xəbər verir. Bu abidələrin öyrənilməsi keçmişimizə,

torpaqlarımıza olan məhəbbətimizi daha da dərinləşdirir. Şuşa – dünyaya böyük maddi və mənəvi mədəniyyət bəxş etmiş, Qarabağın bol sərvətə, mülayim iqlimə, zəngin bitki və heyvanlar aləminə malik tacıdır.

**Nazim Məmmədov, Tarix elmləri doktoru**

Şuşa! Bu ad qəlbimdə o qədər şirinli-acılı xatirələr oyadır, hisslər, duyğular ləpələndirir ki, Şuşalı günlərimin – Şuşalı günlərimizin hansı anını daha çox qabartmaqda çətinlik çəkirəm. Və bu an Şuşa dahi rəssamın çəkdiyi böyük, əzəli və ədəbi bir tablo kimi gözlərim önündə durur.

**Mustafa Çəmənli, Əməkdar mədəniyyət işçisi**

Şuşada musiqi çoxdur. Azərbaycanın hər hansı rayonundan daha çox xalq mahnılarını, rəqslərini, xanəndə və sazəndələrini burada eşitmək olar. Şuşa qədim zamanlardan musiqinin beşiyi kimi məşhurdur və bütün Zaqafqaziyada xalq musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdır. “Şuşa musiqiçiləri” Azərbaycan musiqisinin tarixini yaradırdılar və onun yalnız vətənlərində deyil, digər Şərq ölkələrində təqdim edirdilər.

**V.Vinoqradov, Şərq musiqisinin məşhur tədqiqatçısı**

Azərbaycanın emblemi adlandırılan Şuşa həm də Yer üzünün gözəllik sərgisi, mərdlik, cəsarət, hünər, qəhrəmanlıq meydanı, sözün, muğamın, musiqinin beşiyidir. Analoqu olmayan səslər muzeyidir. Vaxtı ilə dünyanın müxtəlif ölkələrindən gələn səyyahlar bu şəhəri haqqında yazanda mütləq onu Yer üzününü canlı muzeyi adlandırırdılar.

**Flora Xəlilzadə, Əməkdar jurnalist**

“Şuşa ili” ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də oxucu konfransıdır. “Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur” adlı konfransa tarixçilər, ədəbiyyatşünaslar, şair və yazıçılarla yanaşı ali məktəb tələbələri, şagirdlər dəvət olunur. Tədbiri açıq elan edən kitabxananın müdriyyəti, söhbətə belə başalayır:

Əziz tədbir iştirakçıları, nəhayət gözlədiyimiz gün gəldi və doğma Şuşamız işğaldan azad edildi. Neçə illərin həsrətinə son qoyuldu. Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə ciddi təsir göstərdi. 28 il, 6 aydan sonra rəşadətli ordumuz tərəfindən Şuşamızın işğaldan azad edilməsi müharibənin taleyinə həlledici təsir göstərərək Zəfər günü kimi tarixə yazıldı. Xarıbülbül Qarabağın azadlıq rəmzi oldu.

Şuşa şəhəri zəngin və şanlı tarixi keçmişə malik olmuşdur. Şuşa özünün ipəyi, parçası, çini qabları, ticarət elitasının mövcudluğu ilə dünyada böyük şöhrət qazanmışdır. Elə buna misal olaraq Şuşadakı qədim karvansaraları göstərmək olar. Görkəmli dövlət xadimi Heydər Əliyevin Şuşaya tarixi abidə kimi qayğısı danılmazdır. Dahi Azərbaycan şairi Molla Pənah Vaqifin qəbirüstü məqbərəsinin qurulması və açılışı da buna misal ola bilər. 1992-ci ildə erməni vandalları tərəfindən Şuşa işğal edildi və bütün tarixi və müasir abidələr, o cümlədən məscidlər yerlə-yeksan edildi. Ulu öndərimizin davamçısı, Ali Baş Komandanımız İlham Əliyevin uğurlu siyasəti və güclü ordumuzun rəşadəti sayəsində Şuşa işğalçılardan azad edildi. Əlbəttə ki, biz bu günü çoxdan gözləyirdik, arzumuza çatdıq. 2021-ci ilin mayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladlğı fərmana əsasən Şuşa Azərbaycanın Mədəniyyət Paytaxtı elan edildi. Ali Baş Komandanımıza öz minnətdarlığımızı bildiririk.

Daha sönra söz tədbirdə iştirak edən qonaqlara verilir.Onlarda öz növbələrində çıxış və məruzələrlə tədbiri davam etdirirlər.

Tədbirin sonu "Şuşa sən azadsan" adlı video çarxla tamamlanır. 44 günlük Vətən müharibəsi başladığı gündən rəşadətli ordumuzun ardıcıl qələbələrindən sonra hər kəs həyəcanla Şuşa xəbərini gözləyirdi. Müzəffər Ali Baş Komandanın qətiyyətli və prinsipial mövqeyi milləti belə düşünməyə vadar edirdi. Hələ 2020-ci ilin oktyabr ayında, döyüşlərin qızğın getdiyi günlərdə Prezident İlham Əliyev xarici media nümayəndələrinə verdiyi müsahibə zamanı bu məsələyə toxunmuşdu: "Şuşasız bizim işimiz yarımçıq qalar". Vətən müharibəsinin 43-cü günündə millətin bu arzusu reallaşdı. 2020-ci il noyabrın 8-i tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi.

2022-ci ilin "Şuşa İli" elan edilməsi Şuşanın beynəlxalq aləmdə tanıdılması baxımından çox önəmli addımdır. Bu qərar Şuşamızın tarixi simasının qaytarılması, regionun mədəniyyət mərkəzinin yenidən dirçəldilməsi, mədəniyyətimizin, incəsənətimizin, tariximizin bərpa edilməsi, yenidən yüksəliş mərhələsinə daxil olması deməkdir. Elə bu baxımdan da, "Şuşa ili" ilə bağlı tədbirlərimiz davam edir. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında təşkil olunan tədbirlərimizdən biri də kitab müzakirəsidir. Bildiyiniz kimi, 44 günlük müharibədə Azərbaycanın qədim şəhərinin işğaldan azad edilməsi həlledici üstünlüyə nail oldu. Azərbaycanın 28 illik həsrətinə son qoyuldu və xalqımızın tarixi-mədəni irsində xüsusi yeri olan Şuşa geri qaytarıldı. Şuşanın azad edilməsi son əsrdə Azərbaycan tarixinin ən şanlı qələbəsidir. Elə bu qələbə münasibətilə də Şuşa şəhərinin tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri və s. haqqında bir çox kitablar işıq üzü gördü. Bu gün biz belə kitabların sərgisi ilə yanaşı, müzakirəsini də keçirməyi nəzərdə tutmuşuq. F. Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq, kitabxanamızın fondunda yer alan uşaq yazarlarının kitablarının müzakirəsini keçirmək istəyirik.

Tədbiri kitabxanaçı Zahid Xəlilin Dəmir Yumruq dastanının müzakirəsi ilə başlayır. Təqdim etdiyimiz bu kitabın müəllifi tarix üzrə fəlsəfə doktoru Bəhmən Əliyev, müəllifi isə məşhur uşaq yazıçısı, filologiya elmləri doktoru, professor Zahid Xəlildir. Kitab 2021-ci ildə TEAS Press Nəşriyyat evi tərəfindən nəşr olunmuşdur. Kitabın mündəricatında "Dastana giriş", "Dastanın başlanması", "Xalq yumruğa çevrilir", "Şahinlər döyüşə gedir", "İncə ürəkli, polad biləkli general", "Bayraqların bayramı", "Dəmir Yumruğun gücü", Yol Şuşaya gedir" və s. kimi bədii publisistik şeir və hekayələr yer alıb. "Dəmir Yumruq dastanı" Vətən müharibəsinə həsr edilmişdir. Kitabda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun 44 günlük zəfər yürüşü bədii və publisistik üslubda təqdim olunur. Kitabın Azərbaycan dilində və digər dillərdə nəşri hüquqi TEAS Press Nəşriyyat evinə məxsusdur.

Tədbiri giriş sözü ilə kitabxanaçı müəllifi professor Zahid Xəlilə aid olan "Dastana giriş" bölümü ilə açır.

Müəllif bu kitabı XXI əsrin ən böyük simalarından biri, Azərbaycan Respublikasının Prezidenti, Qarabağı işğaldan azad edən Ali Baş Komandan İlham Əliyevə, müzəffər Azərbaycan Ordusuna, qəhrəman şəhidlərimizə, məğrur millətimizə ithaf etdiyini qeyd edir.

O, "Dastana giriş" bölümündə qeyd edir ki, hər şey dəmir yumruğun havaya qalxması ilə başladı.

Dəmir yumruq çoxdandır polad kimi bir kişinin əlində bərkiyirdi. Bu yumruğu bircə dəfə düşmənin başına çırpmaq qalırdı. Həmin an zərbədən yağı düşmən yerlə yeksan olacaqdı. Amma polad biləkli kişi tələsmədən qonum-qonşunu, yaxını-uzağı, biləni-bilməyəni başa salırdı ki, Ermənistanın işğalı altındakı Qarabağ onun dədə-baba torpaqlarıdır: "Qoy torpağımı azad eləsin! Əlimdən xata çıxsa, məni qınamayın!"

Dəmir yumruqlu sərkərdə səbirlə bütün tədbirləri gördü. Amma düşmən onun nədənsə çəkindiyini düşünür, təzə kəndlər, şəhərlər tutmağa can atırdı. Yenə də gözünü qan örtmüşdü. Səbirləri sınağa çəkirdi.

Səbrin də bir həddi-hüdudu var. Günlərin birində dəmir yumruq daha dözmədi. O. Vulkan kimi kürədi, qəzəblə havaya qalxdı.

Dəmir yumruq havaya qalxanda yer-göy lərzəyə gəldi. Dağlar titrədi, dərələr səksəndi. Araz çayı oxuduğu qəmli nəğmələrə ara verdi. Kür çayı hayqırdı. Həkəri ilə Tərtər çayları bir anlıq nəfəslərini içlərinə çəkib bu qüdrətli çağırışı dinlədi. Xəzər dənizi, Göygöl, Maral göl, Qara göl, Alagöl ləpələrini sahillərdən yığıb diqqətlə qulaq asdılar. Suqovuşan, Sərsəng su anbarları donub-qaldılar. Kiçik Qafqaz, Böyük Qafqaz dağları silkələndi, Murov silsiləsi, Ömər zirvəsi, Böyük Kirs, Kiçik Kirs dağları, Dəlidağ bir-birinə dəyib şaqqıldadı. Qubadlı, Zəngilan, Cəbrayıl təpəlikləri, Məngələn ata yüksəkliyi, Ergi düzü, Haramı düzü bu səsi eşidib sevindilər. Bəli, hamının səbirsizliklə gözlədiyi gün gəlmişdi. Dəmir yumruq havada idi.

Həmin gün Qoca şairin, necə deyərlər, kefi ala buludda idi. Sevincini hamı ilə bölüşürdü. Kimi görürdüsə, şövqlə deyirdi:

-Gördünüz? Bilirdim! Dəmir yumruğun qüdrətini bilirdim. Çox tezliklə torpaqlarımız geri alınacaq.

Qocanın həyəcanı bitmək bilmirdi, bu minvalla gecəni gündüzə qatdı, "Dəmir yumruq" şeirini yazdı:

Dəmir yumruq-bu gözəl söz
El-obanın dilindədir.
Dəmir yumruq dəmir kimi
Bir kişinin əlindədir.

Dəmir yumruq beş barmaqdır,
Amma böyük bir ölkədir.
Cəsarətdir, şücaətdir.

Nə tərəddüd, nə “bəlkə”dir.

O anlatdı kimin çuxur,
Kimlərin dağ olduğunu.
Kimin nahaq olduğunu,
Kimlərin haqq olduğunu.

Hamı gördü həqiqəti,
O, ədalət timsalıdır!
Düşmənlərin gözlərində
Bir fəlakət timsalıdır!

O anlatdı Yer üzünə,
Məğlub nədir, zəfər nədir.
O, adi bir yumruq deyil,
Həyatdakı möcüzədir.

Dəmir kimi, polad kimi
Birləşdirdi insanları.
İlin payız günlərinə,
O qaytardı ilk baharı.

Dəmir Yumruq möcüzədir,
Sağdan vurdu, soldan keçdi.
Düşmən əsdi qabağında,
Dağdan vurdu, yaldan keçdi.

Yorulmadı, usanmadı,
Heç dərmədi nəfəsini.
Dəmir Yumruq gedib tutdu
Qarabağın zirvəsini.

O yandırdı Qarabağda
Elin sönmüş çırağını.

Yağmalanmış torpağıma
Taxdı zəfər bayrağını.

Haqqı nahaq etmişdilər,
O qaldırdı haqq səsini.
Onun polad iradəsi
Titrətdi Yer kürəsini.

Dəmir Yumruq- döyüşlərdə
Tarix yazan o sarsılmaz,
O qüdrətli barmaqlara,
Alqış, alqış deyəcəyəm!

Tədbirin gedişatında qonaqlar "Şuşa İli" ilə bağlı təşkil olunmuş foto və kitab sərgisi ilə tanış olurlar.

Daha sonra tədbirdə "Dəmir Yumruq Dastanı"dan "Şuşanın uşaqları" adlı şeir oxucuların ifasında səslənir.

Təzə çiçəyə bənzər
Şuşanın uşaqları.
Cıdır düzündə gəzər
Şuşanın uşaqları.

Oğlanlar körpə tərlan,
Qızlar ağ qağayıdır.
Qayalar dərələrdən
Çıxan qonur ayıdır.

Şuşanı xonça kimi
Göyə qaldırıb dağlar.
Bu xonçanın içində
Noğul-noğul uşaqlar.

Heç zaman belə güclü
Görməmişdim dağları.

Şuşanı qaldırıb ki,
Dünyanın hər yerindən
Görsünlər uşaqları.

Yuxarıda qeyd etdiyimiz kimi 2022-ci il "Şuşa ili"nin elan olunması ilə bağlı bir çox kitablar işıq üzü görüb ki, bunlardan biri də uşaq kitabxasının fondunda yer alan uşaq yazarı Solmaz Amanovanın müəllifi olduğu "Suşanın sehirli açarları" adlı kitabıdır.




"İRS" silsiləsindən olan "Şuşanın sehirli açarları" adlı kitabı "EVEREST" nəşriyyat evi tərəfindən 2021-ci ildə nəşr olunmuşdur. Kitabı giriş sözü ilə müəllif Solmaz Amanova açır və uşaqlara müraciət edərək deyir;
Əziz və mehriban uşaqlar!

Şuşa şəhəri qədim Qarabağın döyünən ürəyi. Qarabağ isə Azərbaycan xalqının milli qüruru, qəhrəmanlıq rəmzidir.
Qarabağ zəngin muğamın, qədim abidələrin, incəsənət nümunələrinin, naxışları gözoxşayan xalçaların vətəni hesab olunur. Milli Azərbaycan Tarixi Muzeyində Şuşanın qala qapısının gümüş açarları saxlanılır.
Qarabağ xanlığının banisi və ilk hökmdarı Pənahəli xan cavanşirin (1693-1763) nəvəsi şairə ağabəyim ağa misilsiz "səhləb çiçəyi" xarıbülbülə həsr olunmuş nəğmənin yaradıcısıdır. O həm də Qarabağ xanlığının sonuncu xanı Mehdiqulu xanın qızı, hökmdar və şairə Xurşudbanu Natəvanın xalasıdır.

Qədim əcdadlarımız möhtəşəm və unikal səsləri ilə bütün dünyada şöhrət qazanmış və dinləyicilərin qəlbini fəth etmişlər. Belə möhtəşəm səslər tarix boyu qədim torpağımızın təmiz havası və qeyri-adi suyundan bəhrələnərək yaranmışdır.

Vətəni Şuşa olan bəstəkar Üzeyir Hacıbəylinin "Əsli və Kərəm" operasında "Qarabağ şikəstəsi" səslənmişdir. "Leyli və Məcnun" operası, "Arşın mal alan" operettası da Üzeyir Hacıbəyli tərəfindən yaradılmışdır.

Hətta erməni bəstəkar Aram Xaçaturyan da öz xatirələrində məhz muğamın onun yaradıcılığına böyük təsir göstərdiyini, "Maskarad" valsını "Bayatı Şiraz", "Spartak" operasındakı "Qılınclarla rəqs" hissəsini də "Şur" muğamının pərdələri üstündə yazdığını etiraf etmişdir. Gənc qızların ifa etdiyi "İnnabı" rəqsini də ermənilər öz musiqi əsərləri kimi qələmə verirlər.

Tarix boyu mənfur düşmənlərimiz bizim qədim torpaqlarımıza göz dikmiş, zaman-zaman bu torpaqları işğal etməyə və mədəni irsimizi mənimsəməyə cəhd etmişlər. Onlar qədim tarixi abidələrimizi büsbütün dəyişərək saxtalaşdırmağa çalışmış, əsrlər boyu dəfələrlə dinc əhalimizi amansızcasına qətlə yetirmişlər.

Bu gün hələ də böyük xülyalarla yaşayan ermənilərə demək istəyirəm ki, əgər onlar, zaman-zaman bu torpaqları işğal etməyə və mədəni irsimizi mənimsəməyə cəht etmişlər. Onlar qədim tarixi abidələrimizi büsbütün dəyişərək saxtalaşdırmağa çalışmış, əsrlər boyu dəfələrlə dinc əhalimizi amansızcasına qətlə yetirmişlər.

Bu gün hələ də böyük xülyalarla yaşayan ermənilərə demək istəyirəm ki, əgər onlar, həqiqətən də, çox qədim zamanlardan Qarabağda yaşayıblarsa, nə üçün onların bu diyardan olan şairləri, yazıçıları, musiqiçiləri və ziyalıları yoxdur?! Niyə ecazkarQarabağ diyarının tarixini və təbiətini tərənnüm edən bir ədəbi əsəri, bir melodiyası yaranmayıb?!
Qəhrəman xalqımız otuz illik həsrətdən sonra 90-cı illərin günahsız qurbanlarının ruhlarını şad edərək şərəfimizə vurulmuş bu ləkəni öz qanı bahasına yudu.

Müzəffər Azərbaycan ordusunun 44 gün davam edən mübarizəsi nəticəsində 8 noyabr 2020-ci il tarixində Şuşa şəhəri öz həqiqi sahibinə qovuşdu. Buna görə Azərbaycan xalqına, Ali Baş Komandan Prezident İlham Əliyevə, xilaskar Azərbaycan Ordusuna, öz qanları ilə şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımıza və onları yetişdirən ata-analara eşq olsun!
Artıq qələbə bizimdir. Vətənimizin qəhrəman övladları bütün dünyaya sübut etdilər ki. Biz qədim mədəniyyətə, tarixə, ədəbi irsə malik cəsarətlivə müdrik xalqıq! Və bu xalqın uğrunda şərəf və ləyaqətlə mübarizə apardığı idealları var.
Uşaqlar! Heç bir zaman unutmayın: “Qarabağ Azərbaycandır!”
Öz irsinizi və torpağınızı göz bəbəyi kimi qoruyun! Qoy bizim şanlı əsgərlərimizin  qəhrəmanlığı sizə örnək olsun!
Mən də sizi “Şuşanın sehrli açarları” adlı nağıl-poema ilə yaşıdlarınızın qəhrəmanlıq dünyasına dəvət edirəm.
Hörmətli tədbir iştirakçıları, ümid edirik ki, bu kitab sizin stolüstü kitablarınızdan biri olacaq və bu kitabdan çox yararlanacaqsınız.
2022-ci ilin “ Şuşa ili” ilə bağlı keçirilən tədbirlərdən biri də şeir müsabiqəsidir. Şeir müsabiqəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Belə Tədbirlərin məqsədi işğal altındakı bütün torpaqlarımızın, o cümlədən Qarabağın döyünən ürəyi - Şuşanın azad edilməsini qeyd etmək, uşaq və gənclərdə hərbi vətənpərvərlik ruhunu daha da yüksəltmək, onlara milli həmrəylik hisslərini aşılamaq, həmçinin istedadlı uşaqları üzə çıxarmaqdan ibarətdir.

Bildiyiniz kimi, görkəmli şair və yazıçılarımızın Qarabağın dilbər guşəsi Şuşa ilə bağlı bir çox şeirləri vardır. Bu şeirlərin hamısı bir-birindən gözəl, poetikdir. Məhz bu baxımdan da, bir çox şeirlərin müsabiqəsini keçirmək olar. Bunlardan bir neçəsini sizlər üçün təqdim edirik. Oxucular səhnəyə daxil olur, Səməd Vurğunun "Şuşa" şeirini söyləyirlər.

Qoynuna girməyə qalmışdır bir az,
Könül fərəhlənib eylədi pərvaz.
Ölməyib görəydim seyrini hər yaz,
Səndə vardır başqa lətafət,Şuşa!
Dağlarından qopar havalı yellər,
Ah,o sərin yellər,səfalı yerlər.
Dağıdıb huşumu divanə eylər,
Vüsalın hər kəsə səadət,Şuşa!
Xırdaca-xırdaca yağışın yağar,
Çən-çisək içindən günəşin doğar,
Bir ağız bir bulaq suyunu içər,
Eyləyirsən yenə qiyamət,Şuşa!
Bir əcəb gülşəndir torpağın,daşın,
Dumanlı dağlardır həyat yoldaşın.
Bir ağrı gördümü ömründə başın,
Ey fitrən xəlq olmuş təbabət,Şuşa!
Qoynuna girməyə qalmışdır bir az,
Könül fərəhlənib eylədi pərvaz.
Ölməyib görəydim seyrini hər yaz,
Səndə vardır başqa lətafət,Şuşa!
Dağlarından qopar havalı yellər,
Ah,o sərin yellər,səfalı yerlər.
Dağıdıb huşumu divanə eylər,
Vüsalın hər kəsə səadət,Şuşa!

Xırdaca-xırdaca yağışın yağar,
Çən-çisək içindən günəşin doğar,
Bir ağız bir bulaq suyunu içər,
Eyləyirsən yenə qiyamət,Şuşa!

Bir əcəb gülşəndir torpağın,daşın,
Dumanlı dağlardır həyat yoldaşın.
Bir ağrı gördümü ömründə başın,
Ey fitrən xəlq olmuş təbabət,Şuşa!

Bu il "Şuşa İli"-nin keçirilməsi ilə əlaqədar təşkil olunan silsilə tədbirlərdən biri də "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq!" adlı yaradıcılıq müsabiqəsidir. Kitabxanada təşkil olunan müsabiqənin 3 yaş qrupu (9-11 yaş, 12-14 yaş, 15-17 yaş) və 4 nominasiya (esse, şeir, mahnı, nitq) üzrə keçirilməsi nəzərdə tutulub. Müsabiqəyə18-28 yaş arası gənclərin də qoşulması mümkündür. İştirakçılar 1 nominasiya üzrə iştirak edə, təqdim edilən işləri Azərbaycan, rus və ingilis dillərində hazırlaya bilərlər. İşlər hazırlanarkən aşağıdakı şərtlər nəzərə alınmalıdır:

– Essenin başlığı olmalıdır. Bir A4 səhifəsindən çox olmamalıdır, çap formasında göndərilməlidir.
– Şeirlərin başlığı olmalıdır və 40 misradan çox olmamalıdır. Şeirlər çap formasında göndərilməlidir.
– Mahnı 4 dəqiqədən çox olmamalıdır. Mahnılar melodiyaya, bəstəyə, özünəməxsusluğa və sözlərə (lazım olduqda) əsasən qiymətləndiriləcək. Yazının keyfiyyəti nəzərə alınmır. Mahnının sözləri çap şəklində göndərilməlidir.
– Nitq nominasiyası üzrə 3 dəqiqədən çox olmayan çıxışlar, video və ya audio formatda göndərilməlidir. Çıxışın mətni çap şəklində göndərilməlidir.

Müsabiqədə iştirak etmək istəyənlər özləri barədə məlumatı (adı, soyadı, təvəllüdü, təhsil aldığı müəssisə, ölkə, şəhər, ünvan və əlaqə nömrəsi) əlavə etməlidirlər.
Müsabiqənin sonunda qaliblər elan olunaraq diplom və dəyərli hədiyyələrlə mükafatlandırılacaqlar.
Qeyd edək ki, müsabiqənin keçirilməsində əsas məqsəd işğal olunmuş torpaqlarımızın azad olunması münasibətilə yeni bədii mətnlər yaratmaq, xalqımızda hərbi vətənpərvərlik ruhunu daha da yüksəltmək, gənclərə milli həmrəylik və qəhrəmanlıq kimi ülvi hissləri aşılamaq, həmçinin istedadlı uşaqları üzə çıxarmaqla onların bədii-estetik səviyyəsini yüksəltməkdən ibarətdir.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında "Şuşa ili" ilə bağlı keçiriləcək tədbirlərdən biri də rəsm müsabiqəsidir. Müsabiqədə respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərinin şagirdləri və uşaq-gənclər inkişaf mərkəzlərinin dərnək üzvləri iştirak edə bilər. "Hər daşı, qayası bir tarix olan Şuşa" adlı müsabiqədə iştirak edən qaliblər sonda münsiflər tərəfindən I, II, III-cü yerin qalibləri üzrə müdriyyət tərəfindən mükafatlandırılırlar.





Belə müsabiqələrin keçirilməsində məqsəd Şuşa şəhərinin zəngin abidələrini, memarlıq komplekslərini, göz oxşayan füsunkar təbiətini, işğal və inkişaf dövrünü uşaq və gənclərin yaddaşına həkk etmək, milli mədəniyyəti və incəsənəti təbliğ

etməkdir. Eyni zamanda xüsusi istedada malik olan uşaq və gənclərin yaradıcılıq potensialını inkişaf etdirmək və yeni istedadları üzə çıxarmaqdan ibarətdir.
















F.Köçərli adına Respublika Uşaq Kitabxanasında “Şuşa İli” bağlı keçirilən tədbirlərdən biri də söhbətdir. Tədbirə tarixçilər, ədəbiyyatşünaslar, Şuşa ziyalıları, məktəb, lisey, gimnaziya şagirdləri və müəllimlər dəvət alır. “Şuşam, Cıdır düzüm...” adlı söhbətə kitabxanaçı belə başlayır: Tarixi mənbələrdən məlumdur ki, XVIII əsrin birinci yarısında Pənahəli xan Cavanşir üç tərəfi sıldırım qayalarla, dərin uçurumlarla, dərələrlə əhatə olunan hündür, əlçatmaz bir yerdə Şuşa qalasının əsasını qoyaraq onu Qarabağ xanlığının inzibati paytaxtına çevirib. Şəhər ilk vaxtlar onun yaradıcısının adı ilə "Pənahabad", sonralar "Qala" adlandırılmağa başladı. Qalanın indiki adı onun coğrafi mövqeyi və mənzərəsi ilə bağlı olaraq yaranıb. Şəhər şişuclu nəhəng bir sal qaya - otuz dörd kvadratkilometrlik bir sahədə yerləşdiyinə görə əvvəllər "Şişə" adlanmış, sonra isə bu söz Şuşa kimi formalaşmışdır.

Qarabağ tarixçisi Mirzə Camal Cavanşirin yazdığına görə İbrahimxəlil xan qalanı möhkəmləndirmək üçün onun ətrafına 3,7 kilometr uzunluğunda müdafiə hasarı çəkdirmişdi. Üç tərəf təbii sərhəd olduğuna görə həmin yerlərdə müdafiə divarları tikmək lazım gəlməmişdi. Qala divarlarında hər 50 metrdən bir iri və əzəmətli döyüş bürcləri ucaldılmışdı. Qalanın baş girəcəyində - şimal tərəfdə Gəncə qapısı, qərb tərəfdə isə İrəvan qapısı açılırdı. Sonralar İbrahimxəlil xan şəhəri böyütmək üçün

qalanın şərq hissəsində yeni yaşayış və sənətkarlıq məhəllələri də saldırıb.

Artıq XIX əsrin ikinci yarısında Şuşa Azərbaycanın əsas sənətkarlıq və ticarət mərkəzi kimi nəinki Qafqazda, Yaxın Şərq ölkələrində məşhur idi. Getdikcə daha da gözəlləşən Şuşa Qafqazın dəbdəbəli şəhərlərindən sayılırdı. Qarabağ tacirlərinin səsi, sorağı müxtəlif ölkələrin iri və mədəni şəhərlərindən gəlirdi. Zənginliyinə və ticarət əlaqəsinə görə Şuşa İrəvan, Tiflis, Gəncə, Bakı, Şamaxı, Naxçıvan kimi inkişaf etmiş şəhərlərlə bir sırada dayanırdı. Şuşadan kimlər keçməyib - dost da, düşmən də, səyyah da, musiqişünas da, etnoqraf da... Hər kəs öz qəlbinin gözü ilə bu şəhərə göz yetirib, qiymət verib. Rus şairi Sergey Yesenin onun gözəlliyini, insanların musiqiyə bağlılığını belə dilə gətirib: "Əgər oxumursansa, deməli, şuşalı deyilsən". Musiqi və poeziya beşiyi adlanan bu qeyri-adi şəhərdə demək olar ki, Azərbaycanın bütün məşhur mədəniyyət xadimləri yaşayıb yaradıblar - Cabbar Qaryağdıoğlu, Məşədi İsi, Hacı Hüsü, Keçəçi Məmməd, İslam Abdullayev, Seyid Şuşinski, Xan Şuşinski, Bülbül, Rəşid Behbudov... XVIII əsrdə Şuşa şəhərində Vaqif kimi bir şeir tacidarı olub. Burada Qasım bəy Zakir yaşayıb yaradıb. Xan qızı Natəvanın şeir məclisləri dillər əzbərinə çevrilib.

Şərqin ilk dramaturgiyasının bünövrəsi Azərbaycanda qoyulub, eləcə də milli operanın beşiyi də Azərbaycandır. İlk professional orkestr də bizim vətəndə dünyaya səs salıb. Həm böyüklər, həm də uşaqlar üçün ilk balet də ölkəmizdə yaranıb. Maraqlıdır ki, bu ölməz sənət abidələrinin bünövrəsini qoyanlar məhz Şuşa ilə bağlı olublar. Bu dilbər diyardan pərvazlanan şəxsiyyətlərdir. Şərqin, türk dünyasının ən görkəmli memarlarından biri olan Səfi xan Qarabaği Şuşanın yetirməsidir. Mir Möhsün Nəvvab türk dünyasında musiqi nəzəriyyəçisi, rəssam və şair kimi tanınıb. Azərbaycan dramaturgiyasında ilk

faciə əsərinin müəllifi Nəcəf bəy Vəzirov da bu torpaqda doğulub. Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov kimi nəhəng sənətkarlar Şuşanın havasını udub, suyunu içib, onun gözəlliyindən güc və yaratmaq qabiliyyəti alıblar. Üzeyir Hacıbəyli, Soltan Hacıbəyli, Zülfüqar Hacıbəyli, Niyazi, Fikrət Əmirov, Süleyman Ələsgərov, Əşrəf Abbasov kimi incəsənət xadimlərinin vətənidir Şuşa. Şuşanı yalnız şeir, muğam, mahnı beşiyi kimi tanımaq çox azdır. Şuşanın ab-havası, iqlimi tamam bambaşqadır. Vaxtilə onun adını dünyanın ən məşhur sağlamlıq məkanları ilə bir sırada çəkərdilər. Şuşa dağlarının məğrurluğu, gül-çiçəyinin ətri, quşlarının nəğməsi, bulaqlarının zümzüməsi, şəlalələrinin şırıtlısı o qədər qeyri-adidir ki, onu olduğu kimi yaratmaq çox çətindir. Firudin bəy Köçərli yazırdı: "Şuşanın ab-havası saf və salamat olmağa görə yaylaq mənziləsindədir. Şuşa şəhərinin ab-havasının təsirindən və torpağının bərəkətindən burada çox zürəfa, üdəba və şüəra vücuda gəlib". Loğman şəhəri idi Şuşa. Dərmansız, iynəsiz insanları müalicə edirdi, həyata qaytarırdı. Sovetlər dövründə dava-dərman təsir etməyən xəstələrə deyərdilər ki: "Get bir neçə gün Şuşada qal. Qoy Qarabağın havası səni sağaltsın". Neçə-neçə yaşlı insandan bu etirafı eşitmişik: "İndiyə kimi Şuşanın hesabına yaşayıram". Şuşa Azərbaycanın mənəviyyat salnaməsidir.

Xan qızı Natəvanın dillər əzbəri olan şeiri yada düşür:

Nə mən olaydım, İlahi,
nə də bu aləm olaydı,

Nə də bu aləm aradil
müqəyyədi qəm olaydı.
Nə hic atəşinə odlanıb yanaydı dilim,
Nə eşq içrə könül
böylə şad-xürrəm olaydı.

Nə sərv qəddin olaydı,
nə həsrətilə gözüm nur,
Nə rüzgar fəraqində qamətim xəm olaydı.
...Nə bəhr olaydı, nə ümman,
nə böylə göz yaşı cari,
Nə gül üzündə, İlahi,
bu növü şəbnəm olaydı.
...Nə ah olaydı, nə əfsus,
nə parə-parə könül,
Nə Natəvanın, İlahi, həvası dərhəm olaydı.

Bu il "Şuşa İli"nin keçirilməsi üçün nəzərdə tutulan tədbirlərdən biri də"Şuşa mədəniyyətimizin paytaxtı, qədim Azərbaycan torpağıdır" adlı oxucu konfransıdır. Konfrans F.Köçərli adına Uşaq Kitabxanasının oxu zalında təşkil olunur. Tədbirə dəvət olunan qonaqlar tarixçilər, ədəbiyyatşünaslar, şair və yazıçılar öz növbələrində Qarabağımızın incisi olan Şuşa haqqında fikirlərini bölüşürlər. Çıxış üçün söz qonaqlara verilir:

Bildiyiniz kimi, 1992-ci il mayın 8-də Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərini ələ keçirməklə Ermənistan ordusu tərəfindən bütün yuxarı Qarabağ zəbt olundu. Nəticədə 289 kvadratkilometr ərazisi, 24 min nəfər əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Şuşa rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Şuşa uğrunda döyüşlərdə 195 nəfər şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər isə itkin düşdü. Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm

Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Realni məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.

Əziz tədbir iştirakçıları! Şuşa haqqında danışmaq, yazı hazırlamaq bizim üçün nə qədər asandırsa, bir o qədər də çətin və məsuliyyətlidir.

Təbiətin insanı məftun edən bütün gözəlliklərini özündə əks etdirən Qarabağ, eləcə də bu gözəl diyarın ən səfalı guşəsi Şuşa insanın xəyalını çox-çox uzaqlara aparır.Çünki bu yerlər, bu yerlərin hər daşı, hər qarış torpağı xalqımızın həyatında baş vermiş bir çox tarixi hadisələrin şahididir.

Şəfalı meşələri, sərin bulaqları, məsum uşaq qəlbi kimi pak havası olan bu şəhərin yaşı çox deyilsə də zəngin tarixə malik bir şəhərdir. Burada adlı-sanlı xanlar, şahlar, ağalar at oynatmışlar. Bu şəhər ağır müharibələr görmüş və dəhşətli yanğınlara məruz qalmışdır. Şuşa şəhərinin binasını Qarabağlı Pənahəli xan qoymuşdur. Şuşa qədim Qarabağ xanlığının paytaxtı olmuşdur. Onun bünövrəsi lap qədimlərə gedib çıxır. Eramızdan əvvəl də Şuşa yaşayış məskəni olmuşdur. Lakin qala kimi 1750-ci ildə yaradılmışdır. Şuşanın 75%-i sıldırım qayalıqlardır. Quş quşluğu ilə o qayaların üzərindən uça bilməzdi. Qalan yerlərdə Pənahəli xan hasar çəkdirib. Şuşa eyni zamanda ticarət məskəni olmuşdur. O dövrdə Şuşa şəhəri bir ticarət mərkəzi kimi bütün Qafqazqa və yaxın Şərqdə məşhur idi. Şuşa Qarabağ mahalında əsas ticarət məntəqəsi kimi rol oynamaqla Azərbaycanın başqa mahallarını da bir ticarət bazarı kimi təmin edirdi. O zaman karvan nəqliyyatı ticarətdə əsas rol oynayırdı. XVIII əsrin ikinci yarısından başlayaraq Şuşa tacirləri də İran və Yaxın Şərq ölkələri ilə ticarət apararkən Şuşa ilə Araz çayı üzərindəki “Xudafərin körpüsü” arasında olan “Molla Nəsrəddin” yolundan istifadə edirdilər, XIX əsrin əvvəllərində Şuşa ilə Gəncəni birləşdirən karvan yolu isə “Kəhrad” yolu adlanırdı. Şuşada karvansaraylar vardı. Başqa ölkələrdən gələn tacirlər burada alverlə məşğul olarmışlar. Şuşa həm də sənətkarlıq məktəbi idi. Şuşada xalçaçılıq geniş yayılmışdı. Şuşa xalçaları Qarabağ xalçaları adı ilə İngiltərə muzeylərində saxlanılır. Şuşada toxunan xalılar xüsusilə 6 arşınlıq “Xanlıq xalısı” nəinki Qafqazın hətta Rusiya və Avropa şəhərlərinin salonlarını bəzəyirdi. Şuşa xalçaları ticarət sərgilərində qabaqcıl yerləri tuturdu. XX əsrin əvvəllərində Qarabağda 25-ə qədər ipəkəriyən fabrik var idi. Baramaların mexaniki üsulla qurudulması ilk dəfə Şuşa da tətbiq edilmişdi. Sovetlər birliyində də Şuşa öz təhsili, mədəniyyəti, yetirmələri ilə fərqlənirdi. Onun yetirmələrinin sayı hesabı yox idi.

Şuşa həmçinin uzun zamanlardan bəri musiqi mərkəzi kimi də tanınmış və xalq istedadlarının tükənməz məbədi kimi bütün Qafqazda şöhrət qazanmışdır. Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də şərqin başqa ölkələrində təmsil etmişlər. Şuşa musiqi məktəbinin yaradıcıları Xarrat Qulu və Molla İbrahim olmuşdur.

Dünya şöhrətli musiqiçilər məhz Şuşadan çıxmışlar.

Şuşada xalçaçılıq muzeyi, Gövhər ağanın məscidləri, Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi, yüzlərlə tarixi abidələrimiz Şuşadan baxanda bütün kiçik Qafqaz dağları ovucun içi kimi görünür. Murov dağı, Qırqız dağı, Sarıbaba dağı, Kirs dağı görünür. Bəli, Azərbaycanın 28 illik həsrətinə son qoyuldu və xalqımızın tarixi-mədəni irsində xüsusi yeri olan Şuşa geri qaytarıldı. Beləliklə, Azərbaycanın qədim şəhərinin işğaldan azad edilməsi ilə həlledici üstünlüyə nail olundu. Bu, Vətən müharibəsində qələbə deməkdir. Şuşanın azad edilməsi son əsrdə Azərbaycan tarixinin ən şanlı qələbəsidir.

“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq” cümlələri Azərbaycanın son yüz illik tarixinin ən möhtəşəm müjdəsidir. Qələbə xəbərinin elan edilməsindən öncə dövlət başçısının ümummilli lider Heydər Əliyevin ruhu önündə nümayiş etdirdiyi ehtiram, məhz ulu öndərin vəsiyyətini yerinə yetirdiyini deməsi Azərbaycanın həm də dövlətçilik prinsiplərinə sahib olduğunu göstərdi. Strateji əhəmiyyətli məsələlərlə bağlı vəsiyyətlərin mövcudluğu və yerinə yetirilməsi yalnız oturuşmuş dövlətçilik ənənəsinə malik olan dövlətlərdə müşahidə edilə bilər. 1992-ci il 8 mayda itirdiyimiz Şuşa 28 il sonra 2020-ci il 8 noyabrda Ali

Baş Komandanımızın rəhbərliyi ilə geri qaytarıldı, Azərbaycanın 28 illik ŞUŞA yarası sağaldı! Bu, Dövlət Bayrağı Günü ərəfəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızın səbirsizliklə gözlədiyi müjdəni tarixi gündə verdi. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu sadaladığımız tarixi abidələr indi öz sahiblərindədir. İllərlə yağı düşmən tapdağı altında qalan tarixi abidələrimiz, dağlarımız, çaylarımız indi öz sahiblərinə qaytarılıb. Quruculuq və abadlıq işləri sürətlə gedən Şuşamızın sahibləriyik.

Əziz Şuşa sən azadsan!

Tədbirin sonu yazıçı, yurnalist Rəşad Məcidin “Şuşa” şeiri ilə başa çatır.

Min şəhər adı var dillər əzbəri,
Adların ən üstün adıdı Şuşa.
Musiqi notudur cüt hecasıyla: Şu-Şa
Dilimin şəhdidir, dadıdı Şuşa.

Ciyərdə nəfəsdir, damarda qandır,
Ruha qanad verən sirli məkandır,
Bilib eşidəndir, güc artırandır,
Qoşundur, əsgərdir, ordudur Şuşa.

Qoynuna hər gələn yüz xəyal eylər,
Qıraqda qalanlar qeylü-qal eylər,
Birini coşdurar, birin lal eylər,
Tilsimdir, ovsundur, cadudur Şuşa.

2022-ci il “Şuşa ili” ilə  bağlı keçirilən tədbirlərdən biri də nağıl saatıdır.  F.Köçərli adına Respublika Uşaq

Kitabxanasının nağıl otağında təşkil olunan nağıl saatına kiçik və orta yaş qrub oxucular dəvət olunur. Kitabxanaçı oxuculara bu möhtəşəm ilin necə təntənəli keçiriləcəyi ilə bağlı məlumat verəndən sonra "Mən və mənim dünyam" uşaq kitabı seriyasından "Şuşa" adlı nağılı uşaqlar üçün oxuyur.

Sizə kimdən deyim, Pənahəli xandan. Qarabağ mahalının adlı-sanlı bəylərini, pəhləvanlarını, xanəndələrini, məzhəkə çıxaranlarını qonaq çağırmışdı, şadlıq-şadyanalıq eləyirdi. Süfrədə ta nə desən vardı:fisıncan plov, qırqovul, turac, kəklik, bildirçin çığırtması, çolpa soyutması, quzu kababı...

Qonaqlar elə əllərini süfrəyə uzatmaq istəyirdilər ki, tar-kaman dilləndi. Bülbül kimi cəh-cəh vuran xanəndələr cuşə gəldilər: sıra ilə "Şur", "Cahargah", "Rast", sonra "Rəhab", "Şüştər". "Seğah", "Bayatı-Şiraz"oxudular, məclis əhlini feyziyyab elədilər.

Sonra məzhəkəçilər bir-birindən məzəli elə əhvalatlar danışdılar, elə hoqqalar çıxartdılar ki, hamı uğunub getdi.

Sıra gəldi pəhləvanlara-əvvəlcə meydanda xeyli gərdiş etdilər, bir-birilərinə hərbə-zorba gəldilər, sonra da qurşaq tutdular. Bu dəm zurnaçı zurnanı elə üflədi ki, az qala ovurdları yırtılsın. Axırda bir-birinə dov gələn pəhləvanlara xələt verdilər-kiminəallı-güllü corab, kiminə də naxışlı dəsmal...

Şadlıq-şadyanalıq qurtarhaqurtarda Rənahəli xan dedi:

-Bəylər, yaxşı əyləndik. İndi də atlarımızı minək, dağlara qalxaq, gül-çiçək dərək, təbiəti seyr edək. Nə deyirsiz?

Dedilər, lap yaxşı olar!

Atlarını çapa-çapa gəlib bir yüksək yerə çıxdılar. Gördülər bura cənnət-məkandı-gül-gülü çağırır, çiçək-çiçəyi. Birdən Pəhahəli xanın gözü bir gülə sataşdı6 sanki bir arı hardansa uça-uça gəlib bir bala bülbülün düz köksünə qonmuşdu. O. Qeyri-ixtiyari fikrə

getdi: bu gülü harda görüb? Hə. Yadına düşdü:nənəsinin toxuduğu xalıda.

Pənahəli xan yanındakıların da gülə zəndlə baxdıqlarını görüb dedi:

-Bəylər, heç bilirsiz bu gülün adı nədi? Xarıbülbül! Nənəm deyirdi ki, bütün Qarabağda tək bircə yerdə bitir. Deməli, o yer bura imiş. Gör havası necə saf və şəffafdır! Lap şüşə kimi! Bəlkə burda yurd salaq? nə deyirsiz?

Hamı bir ağızdan dedi:

-Məsləhətdi.

Pənahəli xan dedi:

-Onda bu yerin adı elə "Şüşə" olsun!

Hamı yenə bir ağızdan dedi:

-Məsləhətdi.

Pənahəli xan bir könüldən min könülə gördüklərinə vurulmuşdu:

-Bir bu düzəngaha baxın!-dedi. Elə bil, Allah-təala cıdır üçün yaradıb! Gəlin atlarımızı çapaq, görək kim ötür?

Bəylər atlarını bir neçə dəfə o başa-bu başa çapdılar.

Pənahəli xan dedi:

-Buranın da adı olsun "Cıdır düzü".

Sonra Pənahəli xan xanəndəyə işarə elədi ki, hünərini göstər-bir "Rast" oxu!

Tar, kaman dilləndi, xanəndə bir "Rast" oxudu, bir "Rast" oxudu, düzü özü də məəttəl qaldı.

Pənahəli xan üzünü xanəndəyə tutub dedi:

-Havadandı ha!..Saf hava səsi də saflaşdırır...Bayaqkı oxumağın hara, bu oxunağın hara...

Düzdü, Pənahəli xan dedi ki, bu yerin gülü-çiçəyi, havası xoşuna gəlir, amma ürəyində başqa niyyəti vardı. Bilirdi ki, gözü götürməyənləri çoxdu, yan-yörələri düşmənlə doludu. Tez, ya da gec, əvvəl-axır, bu gün üstlərinə gələcəklər. Bu yer isə, yağılardan qorunmaq üçün çox münasib idi.

Elə həmin gün Şüşə şəhərinin bünövrəsi qoyuldu: ağban evlər tikildi, ətraflarında da cənnət kimi bağlar salındı. Pənahəli xan şəhərin ətəyindəki meşədə döyüş üçün silah-sursat hazırlatdı. Həmin yerin adını da "Topxana" qoydu.

Bundan xəbər tutan yağılar əl-ayağa düşdülər, günlərin bir günü qəfildən Şüşəyə hücum etdilər. Ucu biz oxlar havada vıy-vıy vıyıldadı, poladüz qılınclar parladı, bir-birinə dəyən nizələr, mizraqlar od saçdı. Neçə gün gecə-gündüz döyüş getdi. Amma düşmən nə illah elədisə də, qalaya yavuq düşə bilmədi, axırda naəlac qalıb geri qayıtdı.

Savaş bitəndən sonra baxıb gördülər ki, qalanın içi də, çölü də yaralılarla doludu. Hər tərəfdən "Su, su!" sədaları yüksəlirdi. Su isə, tərs kimi, qurtarmışdı.

Yaralı dostlarının iniltilərinə tab gətirə bilməyən İsa adında bir igid su tapmaq üçün müşəyə yollandı. Hər tərəfi ələk-vələk elədi, birdən bir dərədə qulağına su şırıltısı dəydi. Yaxınlaşıb gördü ki, gur bir bulaq pırıl-pırıl axır. Atının tərkinə bağladığı bardağı su ilə doldurub tez geri qayıtdı. O, bardaqdakı suyu kasaya töküb, yaralı döyüşçüyə yaxınlaşdı:

-Su gətirmişəm, iç,-dedi.

Yaralı döyüşçü başını buladı:

-Elşənin yarası mənim yaramdan ağırdı, suyu ona ver!

İsa, Elşənin yanına getdi:

-Su gətirmişəm, iç,-dedi.

Elşən başını buladı:

-Elbəyin yarası mənim yaramdan ağırdı, suyu ona ver!

İsa, Elbəyin yanına getdi:

-Su gətirmişəm, iç,-dedi.

Elbəy başını buladı:

-Yox suyu Elturana ver. O hamımızdan çox ox atıb, qılınc çalıb.

İsa ta bilmədi nə etsin?

Qalada bir loğman vardı. Döyüşçülərin yaralarına məlhəm qoyurdu. Üzünü İsaya tutub dedi:

-Oğlum, yadında saxla, dostunu çox sevənin yurdu heç vaxt basılmaz!

Aradan qərinələr keçdi. Şüşə bu cür çoxlu döyüşlər gördü. Hər dəfə də alınmazlığı ilə ad-san qazandı. Bütün Qarabağın arxa-dayağı oldu.

Sonradan xalq bu qəhrəman şəhəri gah "Şuşa", gah "Şuşa qalası", gah sadəcə, "Qala", gah da Pənahəli xanın şərəfinə "Pənahabad" adlanırdı.

Hə, az qala, yadımdan çıxmışdı, Şuşadan azca aşadıda, meşənin içində pıqqır-pıqqır qaynayan o bulağın da adı elə o vaxtdan "İsa bulağı" qaldı.

Göydən üç alma düşdü,

Uşaqlar tez bölüşdü.

Hər almanın öz dadı,

Hər nağılın öz adı

Bəli , əziz uşaqlar gəlin indi də "Şuşa" nağılı haqqında sual-cavab edək.

1.Pənahəli xan kimləri qonaq çağırmışdı?

2.Xanəndə hansı muğamları oxudu?

3.Qonaqları kimlər şənləndiridi?

4.Güləşçilərə hansı xələtlər verildi?

5. Pənahəli xan məclisdəkilərə nə təklif etdi?

6.Onların rast gəldikləri yer necə idi?

7.Pənahəli xan at çapdıqları yeri necə adlandırdı?

8.Xanəndə hansı muğamı oxudu?

9. “Topxana” meşəsi necə oldu yarandı?

10. Pənahəli xanın saldığı şəhər sonralar necə adlandı?

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında “Şuşa İli” ilə bağlı təşkil olunan tədbirlərdən biri də ədəbi-bədii gecədir.
Ədəbi-bədii oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbiri təşkil edən kitabxanaçı iki ay qabaqcadan tədbirin ssenarisini hazırlayır. Tədbirə bir çox qonaqlar dəvət olunur. Tədbirin keçirildiyi məkan bayram əhval-ruhiyyəsi ilə bəzədilir. Xarı bülbül və Azərbaycan bayrağı səhnəyə himnimiz altında gətirilir. İlk əvvəl Şuşa şəhərinin görüntüsü və yaranması haqqında slayd göstərilir. Slaydda Qarabağın və Qarabağın tacı olan Şuşanın görkəmli şəxsiyyətləri haqqında material da öz əksini tapır.
Dəvət olunan qonaqlar slayda baxdıqdan sonra tədbir açıq elan olunur. Aparıcılar səhnəyə daxil olur.

**I Aparıcı:**

**Anam Qarabağın zinəti olub,**
**Başını tac kimi bəzəyir Şuşa.**
**Dağlar zirvəsində xəyala dalıb,**
**Dincələn qartala bənzəyir Şuşa.**

Deyirlər ki, Şuşanın gecələri çox qəribə olarmış. Ulduzlar göylərə səpilən zaman hər evdə tar-kaman dil açarmış. Bəzən də səhərədək bu qeyri-adi səslər susmazmış Bu musiqidən coşan qayalar da nəğmə deyərmiş. Nəinki Şuşada doğulmaq, orada

böyümək, elə bu şəhəri sevərək onun qonağı olmaq da bəs edərdi ki, sənin də qəlbin musiqi ilə döyünsün. Nəinki Azərbaycana, Şərq aləminə, bütün türk dünyasına məxsus mədəniyyətin, incəsənətin elə bir sahəsi tapılmaz ki, orada Şuşadan gələn musiqiçilər xarüqələr yaradaraq ilkinlər sırasında dayanmasınlar. Şuşa haqqında düşünəndə adamın gözləri qarşısında qəribə mənzərələr yaranır. Bir tərəfdə dağların sinəsində məğrur dayanan doğma şəhər, digər tərəfdə də onun şöhrətini ellərə yayan şuşalılar. Şuşada adlı-sanlı, nüfuzlu nəsillər yaşayıb ki, onların soyadı bu gün də iftixarla çəkilir, ehtiramla yad edilir.

Xalq mahnısı "Şuşanın dağları başı dumanlı" adlı musiqi səslənir.

Şuşanın dağları başı dumanlı,
Qırmızı koftalı, yaşıl tumanlı,
Dərdindən ölməyə çoxdu gümanım.

Ay qız, bu nə qaş göz, bu nə tel,
Ölərəm dərdindən, onu bil,
Danışmasan da balam, barı gül.

Şuşada axşamlar yanar ulduzlar,
Onlardan gözəldi gəlinlər, qızlar,
Oturub yol üstə yarını gözlər.

Ay qız, bu nə qaş göz, bu nə tel,
Ölərəm dərdindən, onu bil,
Danışmasan da balam, barı gül.

Şuşanın hər yandan gəlir sorağı,
Tərifə layiqdir İsa bulağı,
Dağları, bağları, qızlar oylağı.

Ay qız, bu nə qaş göz, bu nə tel,
Ölərəm dərdindən, onu bil,
Danışmasan da balam, barı gül.

**II Aparıcı:** Şuşa-qeyrət rəmzi, milli mücadilə simvolu, musiqi mədəniyyətimizin beşiyi, Qarabağın ürəyi, Ali Baş Komandan İlham Əliyevin zəfər bayrağını sancdığı müqəddəs yurd, Ana Vətən!

**Saçdı ətrin boğub sevinc yaşına,**
**Zəfər çələnginin tər qızılgülü!**
**Qayıtdı gülləri yığıb başına,**
**Vətən gülşəninin Xarı bülbülü!**

Nə xoşdur, Vətən torpağını azad görmək, onun yağı düşməndən azad olunmasına şahidlik etmək, qələbə bayramının şərbətini içmək. Bundan gözəl hiss, bundan gözəl duyğu təsəvvür etmək yersiz olardı. 30 ilə yaxın bir müddətdə itirdiyimiz o torpaqların ağrı-acısını yaşamaq, qaçqın və məcburi köçkün olmaq, boynu bükük, başı aşağı yaşamaq olduqca çətin və məşəqqətlidir.

Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır. Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmışdır. Oxucular

səhnəyə daxil olur, Kərim Kərimlinin “Salam Şuşam” adlı şeirini söyləyirlər.

Sən dağların başında mirvarisən, incisən,
Şəhərlər sırasında dünyada birincisən!
Gözəlliyin Tanrının qüdrətindən yaranmış,
Tanrı verən payından bütün cahan barınmış…
Şəhidlərin qanından lalələrin güc almış,
Xarıbülbül, adınla, şöhrətinlə ucalmış…
İbrahimin qılıncı, Pənah xanın taxtısan,
Bu gün artıq ölkəmin mədəni paytaxtısan!
Musiqinin beşiyi, sözün, səsin yurdusan,
Yalın əllə döyüşən ölümbilməz ordusan!
Eşqinin ünvanısan mədəni insanlığın,
İstedadın beşiyi, mədəni – insanlığın!..
Bayrağım əllərində sən ucaldın göylərə,
Bayrağımı birinci sən ucaltdın göylərə.
Dünya sənə heyrandır – papağı başdan düşür,
Dirisi at belindən, ölüsü daşdan düşür…
Başı dumanlı yurdum, duman üstə var Günəş,
Sənə arxa-dayaqdır ulu Qırxqız, Ərgünəş!
Əsgər kimi döyüşdü torpağın da daşın da,
Qartalları düzürdü səmaya qardaşın da…
Qoy zəfərin əbədi, Zəfər yolun düz olsun,
Göz dikənin qazancı qoy quruca söz olsun!
Daim ayıq olsan da, qoy bu döyüş son olsun!
Sülh donun göy-qırmızı, ağ-yaşıl bir don olsun!
Əbədiyyət məskəni, ey əziz yurdum Şuşa!
Qəhrəmanlar diyarı, igidim, mərdim Şuşa!

Qəhrəman övladların sən ey şanlı Vətəni,
Qəlbi məhəbbət dolu, gözü qanlı Vətəni!
Bundan sonra əbədi azad yaşa, hürr yaşa!
Cah-calal, çal-çağırlı, şaqraq yaşa, gur yaşa!
Kərimin də şeiri sənə ərməğan olsun,
İstəyi yalnız budur: şəninə şayan olsun!!!

I Aparıcı: Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir. Azərbaycan xalqının yaradıcılıq dühasının möcüzəsi olan Şuşa şəhəri zəngin və şanlı tarixi keçmişə malikdir. Şuşa Azərbaycan xalqı üçün, son dərəcə müqəddəs, ziyarətgah qədər əziz olan yurd yeridir. Çünki dünyanın bu füsunkar guşəsi bütün tarixi dövrlərdə Azərbaycanın cənnəti olan Qarabağın sinəsində ona həyat verən bir ürək kimi döyünmüş, aranlı-yaylaqlı bütün Qarabağın məskəni olmuşdur. Şuşa Azərbaycan mədəniyyətinin ən mühüm mərkəzlərindən biridir. Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamış Molla Pənah Vaqif, Qasım bəy Zakir, Süleyman Sani Axundov, Mir Möhsün Nəvvab, Xurşidbanu Natəvan, Yusif Vəzir Çəmənzəminli, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev və onlarla digər görkəmli mütəfəkkirlər Şuşa ədəbi mühitinin yetirmələridir. Oxucular səhnəyə daxil olur. Uşaq yazıçısı Solmaz Amanovanın “Suşanın sehrli açarları” adlı pyesini səsləndirirlər.

**Aparıcı:**

Qədim Qarabağda, keçmiş zamanda
Rəvayət gəzirdi Pənah xan haqda.
Dürüst hökmdardı Pənahəli xan,
Həm müdrik rəhbərdi, həm nəcib insan.
Onun şərəfinə şəhər ucaldı,
Pənəhabad oldu şəhərin adı.
Lap yaxında idi səfalı Şuşa,
Bal verən arılar uçaraq qoşa,
Şirə toplayırdı orda güllərdən,
Bülbüllər budaqda ötürdü şən-şən.
Məşhurdu Şuşanın sarı bülbülü,
Bir də ona bənzər xarıbülbülü.
Orda yaşayırdı balaca Abbas,
Onu tanıyırdı Şuşada hər kəs.
Abbas mədrəsədə təhsil alırdı,
Qədim kitablara maraq salırdı.
Yaxşı oxuyurdu bütün fənləri.
Xarici dillərə çox idi meyli.
Bir gün ailəyə bədbəxtlik gəldi,
Abbas atasını vaxtsız itirdi.
Çətin, əziyyətli günlər başladı,
Uşaq çörəkpulu qazanmalıydı.
Yox idi əlində bir sənət, peşə,
Səsi çox gur idi, yaradı işə.
Bir tacir iş Verdi karvansarada,
Abbas su satmağa başladı orda.
Şuşaya hər yerdən tacir gələrdi,
Orda mal dəyişər, alver edərdi.
Hər axşam həmin o karvansaradan
Ucalardı göyə şikəstə, muğam.
Bir tamaşa idi, Cıdır düzündə
Qarabağ atları quştək süzəndə.

Tacirlər yarışda mərcə girərdi,
Kisədə sikkələr cingildəyərdi.

**Abbas:**
-Göz yaşıtək duru su satıram mən,
Dağın ətəyində çıxır çeşmədən.
Bal kimi şirindir, buz kimi sərin,
Bir qurtum içərsən, doydurar səni.

**Aparıcı:**
-Abbası tacirlər bu cür səsləyir,
Bir dəfə su içən bir də istəyir.
Yenə də Şuşaya gəlib tacirlər,
Gah mal alıb-satır, gah dincəlirlər.
Abbas gələnlərə sərin su satır,
Hər yerdən musiqi səsi ucalır.

**Tacir:**
-Abbas, su ver mənə, bu da bir dirhəm.
Şuşa bir cənnətdir, suyusa məlhəm.

**Aparıcı:**
-Abbas yaxınlaşır tacirə, o an
Sarsılır orada duyduqlarından.
Cəfəng söz danışır erməni tacir,
Qəzəbdən Abbasın əlləri əsir.

**Tacir Karen:**
-Suren, lap tezliklə bütün qarabağ
Acı göz yaşına qərq olunacaq.
Bu torpaq bizimdi-ermənilərin,
Camaat qaçacaq  bu yerdən, bilin.
Donuz saxlayarıq məscidlərində,
İlan buraxarıq həyətlərinə.

Dağıdarıq bütün abidələrin,
Torpaq bizim olar-ermənilərin.

**Rus tacır:**

-Sizə Qarabağda biz yer ayırdıq,
Hörmətə, izzətə sizi çatdırdıq.
Alban kilsəsini siz ələ aldız,
Udi tayfasını yaman aldatdız.
O vaxt buradakı yerli əhali,
Bizə deyirdi ki, bu bir hiylədi.
"Siz bu torpaqlarda kök atacaqsız,
Sonra xin çıxıb aldadacaqsız".

**Aparıcı:**

-Elə ki, tacir bunu söylədi,
Erməni tacirin rəngi göyərdi.

**Karen:**

-Biz qədim Hayastan varisləriyik,
Paşaya, sultana boyun əymədik.

**Rus tacir:**

-Zəngəzura sizi bizik köçürən!

**Tacir Lakron:**

-Bonjur Suren, bonjur Karen!

**Karen:**

-Tanış olun, Lakron dostumdur mənim,
Həm də ticarətdə yaxın şərikim.
Tezliklə qovqrıq müsəlmanları!
Şuşanın sehrli açarlarını
Almışam bazardan qəpik-quruşq,
Bununla da bizim olacaq Şuşa!

**Rus tacir:**

-Tilsimi kim sizə sata bilərdi7

**Karen:**

-Var idi bazarda bir səfəh oğlan

Bax, o susatana bənzəyir yaman.
Rus tacir:
-Türklər əmanətə çox dəyər verir!
**Karen:**
-Pənahəli xandan qalıb açarlar!
Rus tacir:
-Sülh, dostluq, asayiş rəmzidir onlar!
Suren:
-Lazım deyil bizə türkün dostluğu,
Türklə erməninin ayrıdır yolu.
**Aparıcı:**
-Birdən xatırladı Abbas hər şeyi
Ananın sandığın, açar, köynəyi…
Həmin açarları o götürmüşdü,
Tarix kitabına dəyişdirmişdi.
**Abbas:**
-Necə dəyişdirdim açarları mən?
Birdən Qarabağı qəsb edər düşmən!
Vətən qarşısında bir günahım var,
Murdar düşməndədir indi açarlar.
Onları almasam, yaram sağalmaz,
Anam bunu mənə heç bağışlamaz!
**Eşşək:**
-La! La!
**Aparıcı:**
-Susuz qaldığından eşşək anqırır.
Tacir xəsislikdən pulunu sayır!
**Rus tacir:**
-Ay Karen, bilirsən, birdir dinimiz,
Açıq və ayındır son məqsədimiz!
Ancaq hər bir şeyin öz vədəsi var,
Bir gün lazım olar bizə açarlar.
Dur, get eşşəkləri rahatlamağa,
Onlar tacirləri qoymur yatmağa.

**Aparıcı:**
-Rus tacir yerindən qalxıb su içdi,
Söhbətdən yorulub bağçaya endi.
Karen pəncərəni açıb bağırdı,
O, kölə qızları hirslə çağırdı.
**Karen:**
-Ay qız, eşşəkləri get sakitləşdir!
Onlar tacirləri narahat edir:
Eşşək:
-İa, İa!
Aparıcı:
-Anqırıq durmadan eşşəklər yenə.
Karen:
-Elə bil, giriblər yerin dibinə!
Aparıcı:
-Tacir, Karen durub endi aşağı,
Qızların titrədi əli-ayağı.
Abbas heyvanlara tez su apardı,
Tacir hey qızları qamçılayırdı.
Karen:
-Onsuz da satacam bazarda sizi1
Aparıcı:
Karenin qəzəbdən qızardı üzü.
**Abbas:**
Kimsiniz? Hardadır ata-ananız?
**Qızlar:**
-Ermənilər qırdı, qaldıq kimsəsiz.
Meşədə gizləndik, tapdılar bizi,
Bu tacir işlədir hər ikimizi.
Hər gün eşşəklərə edirik qulluq,
Lap əldən düşmüşük, elə bil, quluq.
**Abbas:**
-Siz məni gözləyin, qayıdacağam,
Düşməndən qisası mən alacağam.

**Aparıcı:**
-Tuluğu götürüb tez evə qaçdı.
**Abbas:**
-Açarı alacam!-deyə and içdi.
**Aparıcı:**
-Abbas evlərinə çatdığı zaman
Gördü ki, bağçada sürünür ilan.
Bülbül yuvasına girmək isdəyir,
Balalar qorxudan hey civildəyir.
Oğlan yerdən iri bir daş götürdü.
İlanın işini dərhal bitirdi.
Bülbül balaları oldular xilas,
Qaça-qaça çıxdı yuxarı Abbas.
Bu vaxt anasıyla üz- üzə gəldi.
**Ana:**
-Afərin, quşları qurtara bildin!
Bizim bağda heç vaxt ilan olmayıb,
Bülbül də burada rahat yaşayıb.
**Abbas:**
-Ana, gecə vaxtı işıqlar saçan,
Danış mənə sehrli açarlardan!
**Aparıcı:**
-Ananın qəlbini həyəcan aldı,
"Dava başlayacaq!"-o pıçıldadı.
Sandığın yanına qaçdı tələsik.
**Ana:**
-Açarlar düşmənin əlinə keçib!
**Aparıcı:**
-Ana ümidini tamam itirdi,
Açarlar bir nəslin tarixi idi.
**Ana:**
-yaxşı ki, burdadır tilsimli köynək.
Oğlum, mənə sözün düzünü de, görək!

**Abbas:**
-Axamaqlıq etmişəm. axmaqlıq, ana,
Günahım böyükdür, keç günahımdan!
**Ana:**
-Sən öz taleyini dəyişdirmisən,
Açarlar olmasa, qalib gəlməzsən!
Hakim olacaqdın sən bu torpağa,
Həm gözəl Şuşaya, həm Qarabağa!
Quran surələri var bu libasda,
Şeytandan qoruyur çətində, darda.
Pənahəli xandan yadigar qalıb,
Qarabağın gücü onda toplanıb!
**Abbas:**
-Mən o açarları qaytaracağam,
Düşmən qılıncından qorxmayacağam!
**Aparıcı:**
-Geyindi, sehrli köynəyi Abbas,
Artıq bilirdi ki, gecikmək olmaz.
O, karvansaraya bir anda çatdı,
Vaxtı itirməyə yox idi haqqı.
Bülbüllər bağçada haray saldılar,
Abbasın dalınca onlar uçdular.
**Bülbül:**
-Tələsik meşəyə yığışın quşlar!
Dovşanlar, kirpilər, bir də arılar!
**Aparıcı:**
-Pərinin yanına quşlar gəldilər,
Olub-bitənləri xəbər verdilər.
**Kirpi:**
-Şuşaya üz tutub bir sürü ilan,
Bizim yuvalara vermirlər aman.
**Göstəbək:**
-Yer altı qazıbdır düşmən tunellər,
Yuva salıb orda əfi ilanlar.

**Bülbül:**
-Daş ilə öldürdü ilanı Abbas,
Mənim balalarım oldular xilas.
**Pəri Xarıbülbül:**
-Düşmən göz dikibdir bizim torpağa,
Tez olun, tez olun, qalxın ayağa!
Əfi ilanların başını əzək,
Bizim torpaqlardan ayağın kəsək.
**Aparıcı:**
-Pərinin əlində sehrli şeşpər,
Qoruyur şeşpəri xarıbülbüllər.
Pənahəli xandan yadigar qalıb,
Qarabağın gücü onda toplanıb.
Abbası uzaqdan gələn gördülər,
Tez onun yanına qızlar gəldilər.
**Abbas:**
-Hazır olun burdan qaçmağa, qızlar,
Bir azca gözləyin, vacib işim var.
**Aparıcı:**
-Üzüm tənəyiylə dırmaşdı oğlan,
Açdı pəncərəni heç səs salmadan.
Gəlirdi hər yerdən xorultu səsi,
Küncdə oturmuşdu ərəb xidmətçi.
Tacirlər yatan yer qaranlıq idi,
Abbas kölgə kimi içəri gidi.
Açarı asmışdı tacir qolundan,
Abbas ehtiyatla çıxartdı ordan.
Əvəzində atıb bir neçə sikkə,
Açarları qoydu öz kisəsinə.
Diyirlənib düşd sikkənin biri,
Yuxudan oyatdı səs tacirləri.
Karen də sıçrayıb qalxdı yerindən,
Abbasın qolundan yapışdı birdən.

**Karen:**
-Mənfur oğru, açarları tez qaytar!
**Abbas:**
-Oğru sən özünsən, vicdansız murdar!
**Aparıcı:**
-Tənəkdən yapışıb tullandı Abbas,
Böyük bir bəladan oldu o xilas.
Karen hirslə onun dalınca qaçdı,
Çatıb açarları qaytaracaqdı.
Özünü qızlara yetirdi Abbas,
Bilirdi ki, indi gecikmək olmaz.
Qızları danlayıb tələsdirirdi,
Əllərindən tutub öyüd verirdi.
Ən yaxşı atları mindi tacirlər,
Oğlanın dalınca sürüb getdilər.
**Abbas:**
-Qızlar, olmaz indi geriyə qalmaq,
Onsuz da çətindir dağlara çıxmaq.
Ordakı meşəyə çatmalıyıq biz,
Tərpənin, bacılar, çox ləngiyirsiz.
Çox çətin yeriyir dağlarda atlar,
Bu anda sipərdir bizimçün dağlar.
**Karen:**
-Türklər, sizi tutub doğrayacağam.
Əsla yaşamağa qoymayacağam.
**Aparıcı:**
-Tacir uşaqların üstünə cumdu,
Tutub bacıların qolunu burdu.
Düşmən güclü idi, Abbas isə tək,
Tutmuşdu açarı ovcunda bərk-bərk.
Əlini başının üstə qaldırdı:
**Abbas:**
-Xalqı torpağından qovmaq günahdı!
Ala bilməzsiniz siz Qarabağı!

Ataram xəndəyə bu açarları!
Xain millətsiniz siz ermənilər,
Gün gələr, ədalət hökmünü verər!
Qarabağ vətəndir, bədəndə candır,
Bilin ki, Qarabağ Azərbaycandır!

**Aparıcı:**

-Baxıb irişirdi bədxah tacirlər.

**Karen:**

-Necə də axmaqsız, ay dilənçilər!
Sizi diri-diri yandıracağıq,
Sonra da palçıqla tapdayacağıq.

**Aparıcı:**

-Meydan oxuyurdu tacirlər yerdə,
Bu dəm bir dəstə quş göründü göydə.

**Abbas:**

-Az qalıb, yaxında bitər ömrünüz!
Tezliklə başlayar qara gününüz.

**Aparıcı:**

-Köməyə gəlirdi sarı bülbüllər,
Qartallar, sərçələr, həm də şahinlər.
Tacirlər qorxudan çaşıb qaldılar,
Pərən-pərən düşüb ordan qaçdılar,
Qarabağ atları hücuma keçdi,
Düşmənin başını dırnaqnan deşdi.
Quşlar gözlərini didib deşdilər,
Çünki uşaqları incitmişdilər.

**Abbas:**

-Qızlar, durun gedək, ev uzaqdadır,
O qarlı dağların arxasındadır.

**Aparıcı:**

-Cəh-cəh vurdu yenə bülbül Şuşada,
Çiçək açdı xarıbülbül dağlarda.
Dilində Abbasın nəğmə ucaldı,

Bizim nağılımız burda qurtardı!

**I Aparıcı: Yuxarıda qeyd etdiyimiz kmimi,** Şuşanın qaynar mədəni həyatı dahi bəstəkar, Azərbaycan peşəkar musiqisinin banisi Üzeyir bəy Hacıbəylinin yaradıcılığına mühüm təsir göstərmişdir. Dahi bəstəkar ilk yaradıcılıq addımlarını Şuşada atmışdır. Azərbaycan musiqisinin beşiyi olan Şuşa, eyni zamanda bütün "Qafqazın konservatoriyası" kimi şöhrət qazanmışdır. Bu şərəfli adı Şuşaya Xaarat Qulu, Əbdülbağı Zülalov, Hacı Hüsü, Məşədi Məmməd Fəzəliyev, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov, Bülbül, Rəşid Behbu dov kimi ölməz sənətkarlar, Sadıqcan ( Mirzə Sadıq Əsəd oğlu), Məşədi Cəmil Əmirov, Quban Pirimov kimi əvəzolunmaz tarzənlər, Zülfüqar Hacıbəyli, Fikrət Əmirov, Soltan Hacıbəyli, Niyazi, Əşrəf Abbasov, Süleyman Ələsgərov və başqa məşhur bəstəkarlar qazandırmışlar.
Oxucular səhnəyə daxil olur: Xalq şairi Fikrət Qocanın Şuşa şeirini söyləyirlər. *(ixtisarla)*

Daşaltı çayına yol vermək üçün
Dağ öz ətəyini yığıb altına.
Elə bil bu yeri yaratdığı gün,
Düşübdür Allahın xoş saatına.

Hər daş öz rəngiylə dünyaya baxır,
Hər qaya elə bil bir qərinədir.
Çay da əsrlərin dibindən axır,
Hər dağ daşa dönmüş zamandır, nədir?!

"Qıy səsi" özünü atır qayadan,
Başqa qayalara dəyir, qayıdır.
Dərə ümman olur gələndə duman,
Buludlar üstündə boz qağayıdır.

**II Aparıcı:** Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Bəli, Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa işğaldan azad olunan gün - noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciətində verdiyi bu xoş xəbər Azərbaycanı ayaq üstə qaldırdı. İnsanlar küçələrə, meydanlara axışaraq qürur və böyük sevinc hisslərini paylaşır, bir-birinə gözaydınlığı verirdilər.

8 May. Bu tarix 28 illik Şuşa həsrətinin simvoludur. Çünki Azərbaycan milli mədəniyyətinin baş tacı olan Şuşa 1992-ci ilin məhz bu günü işğal edilmişdi. O gün-bu gün, düz 28 il məhbusluq həyatı yaşadı Şuşa. Onunla bərabər, Azərbaycan xalqı da ağrı-acılar və həsrət içində qıvrıldı. Lakin Azərbaycan insanının ümidi heç bir zaman itmədi, məhz bu səbəbdən 28 illik əsarətə dözdü, tab gətirdi.

Oxucular səhnəyə daxil olur.Xalq şairi Səməd Vurğunun "Şuşa" şeirini söyləyirlər.

Qoynuna girməyə qalmışdır bir az,
Könül fərəhlənib eylədi pərvaz.
Ölməyib görəydim seyrini hər yaz,
Səndə vardır başqa lətafət, Şuşa!

Dağlarından qopar havalı yellər,
Ah,o sərin yellər,səfalı yerlər.
Dağıdıb huşumu divanə eylər,
Vüsalın hər kəsə səadət, Şuşa!

Xırdaca-xırdaca yağışın yağar,
Çən-çisək içindən günəşin doğar,
Bir ağız bir bulaq suyunu içər,
Eyləyirsən yenə qiyamət, Şuşa!

Bir əcəb gülşəndir torpağın,daşın,
Dumanlı dağlardır həyat yoldaşın.
Bir ağrı gördümü ömründə başın,
Ey fitrən xəlq olmuş təbabət, Şuşa

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtdıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" ifadələri Azərbaycan xalqının bütün acılarını dindirdi. Artıq mayın 8-i də öz bədbinliyini itirib. Azərbaycan Xalqı daha Şuşanın işğal gününü xüsusi həssaslıqla da qeyd eməyəcək.

Xatırladaq ki, Ermənilərin Şuşaya son hücumu 1992-ci il mayın 7-dən 8-nə keçən gecə başlayıb. Şəhər dörd bir tərəfdən raket, top, tank və digər silahlardan şiddətli atəşə tutulub. Bundan sonra düşmən Xankəndi və Kərkicahan istiqamətlərindən piyadalarla hücuma keçib. Şəhər mayın 8-də axşamadək müdafiə olunsa da, silah-sursat və canlı qüvvə sarıdan üstün olan işğalçıların qarşısında tab gətirə bilməyib. Ermənilər əvvəlcə Şuşanı, sonra isə yaxınlıqdakı Kosalar və Şırlan kəndlərini ələ keçiriblər.

Əslində alınmaz qala sayılan Şuşanın belə qısa müddətdə süqut etməsinin səbəblərindən biri şəhərin müdafiəsinin yetərincə təşkil olunmaması idi. Ermənistan isə Şuşa ətrafına çoxsaylı hərbi texnika və canlı qüvvə yığmışdı. Erməni mənbələrinin

məlumatlarına görə, şəhərə hücumda 100-dək zirehli maşın və tank, 11 min canlı qüvvə iştirak etmişdi. Erməni silahlı birləşmələrinin tərkibində hətta xaricdən gətirilmiş muzdlular da döyüşürdülər.

Qeyd edək ki, Şuşa işğal edilərkən burada 25 min nəfərədək əhali yaşayırdı. Şəhərin müdafiəsi zamanı 195 dinc sakin şəhid olub, 165 nəfər yaralanıb. Ermənilər tərəfindən əsir götürülərək Şuşa həbsxanasında saxlanılan 114 azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirilib. Şəhərin 58 sakini itkin düşüb.

Azərbaycan Ordusunun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edildi. Belə ki, 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olundu. Bununla da Azərbaycanın, xüsusən də Qarabağın baş tacı olan Şuşa şəhəri illərin əsarətdən, ağır işgəncələrlə müşayiət olunan məhbusluq həyatından xilas edildi. Azadlığının ilk günündən etibarən, şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparıldı və bərpa işlərinə başlanıldı. Hazırda Şuşanın əvvəlki görkəmini özünə qaytarması, eləcə də dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi üçün sürətli işlər aparılır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilib. Belə ki, Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilib. Çünki tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və

qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daimi inkişafına şərait yaradacaqdır.

Bütün bunları gözə alan Azərbaycan Prezidenti İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında sərəncam imzaladı. Beləliklə, Şuşa azadlığının ilk dövrünə mədəniyyət paytaxtı kimi qədəm qoydu. Şübhə yoxdur ki, Şuşa çox yaxın illərdə nəinki Azərbaycanın, dünyanın mədəniyyət mərkəzlərindən birinə çevriləcək. Bunun üçün ortada yüksək potensial və möhkəm iradə mövcuddur. Oxucular səhnəyə daxil olur. Heydər Əliyev adına Fondun vitse-prezidenti, ictimai xadim Leyla Əliyevanın Şuşaya səfərindən sonra yazdığı şeiri sizlərə təqdim edirik. L.Əliyevanın Şuşadakı təəssüratları ilə bağlı yazdığı şeiri ruscadan dilimizə Aydan Xəndan tərcümə edib:

Sehirli bülbülə bənzəyən çiçək
Doğma dağlarımın qoynun bəzəyər,
Cənnət guşəmizdən uzaqda, görən,
Necə yaşamışam bu uzun illər?!

Dünyaya sığacaq yadlar, yerlilər
İçimdə həsrətlə gündüz, gecələr
Səndən ayrı qalıb, dərdini çəkib
Necə yaşamışam bu uzun illər?

Şeirlər yaradır məna, qafiyə
Bu yolda çalışmaq, öyrənmək gərək
Könlümün içindən gələn sətirlər
Qüsurlu olsa da, həqiqət gizlər.

Vətəndən ayrılmış, lal olan dillər
Göz yaşı axıdıb, çox dərd çəkdilər.
Ey sehirli diyar, sənin yolunda
Dualar səsləndi, coşdu ümidlər.

Ey sehirli diyar, yuxumda bir gün
Dağların üstündən uçan quş gördüm.
Ruhumda gül açdın, sən Xarı bülbül,
Necə darıxmışdım bilsən səninçün!

Allahım böyükdür, adildir hökmü
Evinə dönəcək şükür insanlar!
Bu şeirim mükəmməl olmasa belə,
Ürəyi böyüklər məni anlayar.

Aparıcı: (Şuşa, 18 sentyabr, 2021) –Bəli, hörmətli tədbir iştirakçıları bildiyiniz kimi, 18 sentyabr 2021-ci ildə ilk dəfə Milli Musiqi günü Şuşada keçirilib. Tədbirdə iştirak edən nümayəndə heyəti xalq artisti Bülbülün evini və Natəvan bulağını ziyarət ediblər, tanınmış şuşalılar Natəvan, Üzeyir Hacıbəyli və Bülbülün heykəlləri önünə gül dəstələri qoyublar.

Hər il dahi Üzeyir Hacıbəylinin ad günündə qeyd olunan tədbir, bu dəfə onun heykəlinin ucaldığı parkda baş tutub. Tədbiri giriş sözü ilə açan Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirib ki, 1995-ci ildən Ulu Öndər Heydər Əliyevin fərmanına əsasən hər il ölkəmizin müxtəlif bölgələrində keçirilən Milli Musiqi Günü bu il Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dəmir iradəsi və Müzəffər ordumuzun rəşadəti sayəsində Şuşada təşkil olunub: "Bu gün keçirilən tədbirin xüsusi əhəmiyyəti var. Milli Musiqi Günümüz vaxtı ilə erməni vandallarının dağıtdığı və 29 avqust tarixində

cənab Prezidentin iştirakı ilə açılışı olan Üzeyir bəyin heykəli qarşısında keçirilib. İkinci səciyyəvi məqam odur ki, bu gün çıxış edəcək Fikrət Əmirov adına Mahnı və Rəqs ansamblı düz 85 il əvvəl dahi bəstəkar tərəfindən yaradılıb".

Keçirilən tədbirdə qeyd olunub ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Şuşada icra etdiyi genişmiqyaslı restavrasiya işləri çərçivəsində ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri bərpa olunur.

Mədəniyyət nazirinin 1-ci müavini Vaqif Əliyev bildirib ki, bugünki tarixi tədbirdə yalnız Üzeyir bəyin vaxtı ilə yaratdığı ansambl deyil, həmçinin, ölkənin aparıcı sənətkarları, xalq və əməkdar artistləri, tanınmış ifaçılar iştirak edir, onun adını daşıyan parkda milli musiqimizin xəzinəsi sayılan əsərləri ifa edirlər. Nazir müavini Şuşanın mədəniyyət paytaxtı olaraq bundan sonra da bir çox yerli və xarici tədbirlərə ev sahibliyini edəcəyini bildirib.

Azərbaycanın Rusiyadakı səfiri, Xalq artisti Polad Bülbüloğlu Şuşaya yeni həyatın qayıtdığını deyib. O, bu gözəl məkanda Vaqif Poeziya Günlərinin, Xarı Bülbül festivalının keçirildiyini, tarixi və mədəni abidələrin bərpa edildiyini bildirib.

*Daha sonra Fikrət Əmirov adına Mahnı və Rəqs ansamblının Xalq Çalğı Alətləri Orkestri ifasında Üzeyir Hacıbəyli, Vasif Adıgözəlov, Süleyman Ələsgərov və digər bəstəkarların ifaları səsləndirilib. Xalq artisti Mənsum İbrahimov, əməkdar artistlər Qoçaq Əsgərov, Anar Şuşalı, Nərgiz Kərimova, Arzu Əliyeva və digər ifaçılar milli musiqi sənətimizin əsrarəngiz nümunələrini təqdim ediblər. Oxucular səhnəyə daxil olur şair Rafiq Yusifoğlunun"Gözlərin aydın, Şuşa" şeirini söyləyirlər.*

**Bükülmüşdü qəddimiz**
**Ayrlığın əlindən,**
**Bir şad xəbər eşitdik**
**Komandanın dilindən,**
**Çaylar coşdu, kükrədi**
**Gözümüzün selindən,**
**Qarabağ göylərində**
**Qəlbimiz döndü quşa,**
**Gözlərin aydın, Şuşa!**

**Şad xəbəri eşidib,**
**Köks ötürdüm dərindən,**
**Qəlbim riqqətə gəldi**
**Ordumun zəfərindən,**
**Komandan əmr eləsə,**
**Dağ oynadar yerindən,**
**Azərbaycan əsgəri**
**Baxmaz qara, yağışa,**
**Gözlərin aydın, Şuşa!**

**Naxələf qonşuların**
**Qorxu düşüb canına,**
**Bədxah havadarları**
**Çəkilibdir qınına,**
**Dost kimdir,**
**düşmən kimdir**
**Dar ayaqda tanınar, -**
**Görüşünə gələcəm**
**Türk qardaşımla qoşa,**
**Gözlərin aydın, Şuşa!**

**Neçə il ayrılığın**
**Əlindən dad elədik!**
**Kövrəlib Üzeyiri,**
**Bülbülü yad elədik!**
**Xan qızı Natəvanın**
**Ruhunu şad elədik!**
**Düşmənin arzusunu**
**Ordumuz çaxdı daşa!**
**Gözlərin aydın, Şuşa!**

**Mənim doğma yurdumun**
**Alınmaz qalasısan,**
**Azərbaycan oğlunu**
**Sən hünər qalası san!**
**Daha ömrümüz boyu**
**Bizimlə qalasısan,**
**Dağların qucağında**
**Yaşa, vüqarla yaşa,**
**Gözlərin aydın, Şuşa!**

Tədbirin sonu “Şuşa, sən azadsan!” sənədli film ilə başa çatır. Qeyd etmək istərdik ki, Zəfər Günü ərəfəsində geniş auditoriyaya təqdim olunan bu filmdə Şuşa əməliyyatını həyata keçirən cəsur əsgər və zabitlərimizin müsahibələri, Şuşanı işğaldan azad edən qəhrəman “Xüsusi təyinatlılar”ımızın keçdiyi döyüş yolu, əməliyyat zamanı çəkilmiş eksklüziv kadrlar yer alır. Həmşinin tədbirdə “Biz” sənədli filminin də nümayişi nəzərdə tutulub. “Biz” sənədli filmi müharibə dövründə fenomenə çevrilən, foto və video materialları yayılan və müzakirə olunan sadə insanlardan bəhs edir. Müharibədə baş verən taleyüklü

hadisələri məhz onlar və həmin anın şahidləri - əsgərlər, həkimlər, təqaüdçülər, bloqer, jurnalistlər danışırlar və həmin vaxt keçirdikləri hissləri tamaşaçı ilə bölüşürlər.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi və "Azərbaycanfilm" kinostudiyası tərəfindən istehsal olunmuş "Biz" sənədli filminin ideya müəllifi və rejissoru Orman Əliyev, prodüseri isə Fariz Əhmədovdur.

**Əlavələr:**

***Şuşanın*** **tarixi və memarlıq abidələri - TARİXƏ BAXIŞ**

Şuşa şəhərinin ərazisi qədim abidələrlə zəngin idi. Ümumiyyətlə, şəhərdə 549 qədim bina, ümumi uzunluğu 1203 metr daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. O cümlədən, 72 mühüm sənət və tarixi abidələri, dövlət xadimlərinin və başqa tanınmış şəxslərin evləri olmuşdu.

Bu abidələrin çoxu XIX əsrdə yaşamış memar Kərbəlayı Səfixan Qarabağı tərəfindən tikilmiş və həmin dövrün ən məşhur nəqqaşı Kərbəlayi Səfərəli tərəfindən bəzədilmişdir.

1. Qala divarı (uzunluğu8 km)
2. Qala Divarları üzərində tikilmiş bürclər (17 ədəd)
3. 17 qədim üslübda salınmış məhəllə
4. 17 məscid
5. 17 bulaq
6. 17 hamam
7. Meydan bulağı
8. İsa bulağı
9. Saxsı bulaq
10. Turşsu Qalereyası

11. Karvansaray (4 ədəd)
12. Şahlıq körpüsü
13. Gəncə qapısı
14. Mirzə Həsən qəbiristanlığı
15. Şor bulaq
16. Mirfəseh qəbiristanlığı
17. Rasta bazar
18. Torpaq meydan
19. Zarıslıda Korun karvansarayı
20. Təzə məhəllədə körpü
21. Ü.Hacıbəyovun heykəli
22. Bülbülün büstü
23. H.Hacıbəyovun büstü
24. Cıdır düzü
25. Topxana meşəsi
26. Ağaböyük Xanımın bürcü
27. Malıbəylidə Qızlar məktəbi
28. Un dəyirmanı
29. Kəlba Şəhriyarın bağı
30. Mirfəseh bağı
31. "Həzrət Əli" kahası
32. "Qızıl qaya"
33. Səkili bulağı
34. Qotur bulağı
35. Şəmilin bağı
36. Hacıyevlərin armud bağı
37. Ağabəyim Ağanın qəsri
38. Bəhmən Mirzə Qacarın saray kompleksi
39. Bəhmən Mirzənin hərəmxanası
40. Bəhmən Mirzə Qacarın tikdirdiyi "Bab" hamamı
41. Qacarların məqbərə kompleksi
42. Qulam Şahın malikanəsi
43. Əsəd bəyin malikanəsi
44. Mamay bəyin malikanəsi

45. Şeytana bazar
46. Əfsanəvi Leyli qalası
47. Çuxur məhəllədə 2 minarəli “Şəfa ocağı”
48. Məhəmməd Həsən Ağanın imarəti
49. Qarabağ xanlığının Divan kompleksi
50. “Həzrət Abbas Şəfa ocağı”
51. Dəlik-daş pilləkan kompleksi
52. Qarabaş Qazisinin mülkü
53.ŞuşaOvdan bulağı
54. Vaqif poeziya evi
55. M.P.Vaqifin məqbərəsi
56. M.P.Vaqifin müəllimlik etdiyi bina
57. M.P.Vaqifin büstü
58. M.P.Vaqifin evi
59. Xan qızı Xurşud Banu Natəvanın sarayı
60. Xan qızı Xurşud Banu Natəvanın bulaq kompleksi
61. X.B.Natəvanın büstü
62. X.B.Natəvanın tikdirdiyi “Qarama”
63. X.B.Natəvanın tikdirdiyi həbsxana
64. Aşağı Gövhər Ağa Məscidi
65. Yuxarı Gövhər Ağa Məscidi
66. Malıbəyli Məscidi
67. Qaybalı Məscidi
68. Şırlan məscidi
69. Alban kilsəsi
70. Rus kilsəsi
71. Hacı Qulamın mülkü
72. M.M.Nəvvabın mülkü
73. M.M.Nəvvabın abidə kompleksi
74. Nəcəfqulu Ağanın mülkü
75. Ağa-Əbdürrəhim Ağanın evi
76. Hacı Bəşirin mülkü
77. Cabbar Qaryağdı oğlunun mülkü
78. Mirzə Hüseynin mülkü

79. Mirəlibəyin mülkü
80. Seyid Məcidin mülkü
81. Kəlba Şirinin mülkü
82. Öpənnik Qara Zeynalın mülkü
83. Fərzalı bəyin mülkü
84. Allahverənli Kəlba Şirinin mülkü
85. Çuxur məhəllədə Kal Həsənin evi
86. Təzə məhəllədə Xayatlılar Mehdinin evi
87. Çuxur məhəllədə Kürd uşağının evi
88. Məşədi Qəhrəmanın mülkü
89. Quyruq məhəlləsində Məşədi Teymurun evi
90. Mehmandarovun ev kompleksi
91. Zöhrabbəyovların evi
92. İbrahim xanın mülkü
93. Sadıqcanın qəsri
94.Uluq bəyin evi
95. Quyruq məhəlləsində Sadıq bəyin mülkü
96. Cəlal bəyin evi
97. Nəcəf bəy Vəzirovun mülkü
98. Virudin bəy Köçərlinin mülkü
99. Süleyman Sani Axundovun mülkü
100. İsmayıl bəyin evi
101. Məşədi Şirinin mülkü
102. Gəraf Əsgərovun mülkü
103. Ağamirovların mülkü
104. Hüsü Hacıyevin mülkü
105. Hüsü Hacıyevin büstü
106. Kəlba Hüseynin evi
107. Yusif Vəzir Çəmənzəmənlinin mülkü
108. Mir Həsən Vəzirovun mülkü
109. Qaraşovların mülkü
110. Hüseyn Qayıbovun mülkü
111. Q.B.Zakirin yaşadığı ev
112. Q.B.Zakirin qəbirüstü abidəsi

113. Hacı Dadaşın mülkü
114. Əbdülrəhim bəy Haqverdiyevin evi
115. Hacı Şükürün imarəti
116. Qədimovların mülkü
117. Ü.Hacıbəyovun ev muzeyi
118. Bülbülün ev muzeyi
119. Xalça muzeyi
120. Rəsm Qalereyası
121. Tarix Diyarşünaslıq muzeyi
122. Qarabağ Dövlət tarixi muzeyi
123. Azərbaycanda ilk "realnı uçiliş"in binası
124. Yaşıl aptek
125. Mədəniyyət evi
126. Külli miqdarda gümüş və mis qablar
127. İbrahim Xəlil xanın 1801-ci ildə tikdirdiyi mədrəsə kompleksi (Gövhər Ağanın məscdinin həyətində)
128. Qarabağ xanlığının vəziri Mirzə Cəmal bəy Cavanşirin və onun ailəsinin məqbərə kompleksi
129. Tarixin yaddaşı olan Daş Kitabələr

**MƏHƏLLƏLƏRİN ADLARI:**

1. Urudlar
2. Seyidli
3. Culfalar
4. Quyuluq
5. Çuxur
6. Hacı Yusifli
7. Dördlər Qurdu
8. Dörd Çinar
9. Çöl Qala
10. Köçərli
11. Mamayı
12. Merdinli
13. Saatlı
14. Dəmirçilər

15. Hamamqabağı
16. Təzə məhəllə
17. Xocamircanlı

Təəssüflə qeyd olunmalıdır ki, artıq özü bütövlükdə böyük bir abidə olan Şuşa şəhəri ermənilər tərəfindən dağıdılmışdır. 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi, 25 orta məktəb, 40 tibb müəssisəsi, 24 tarixi abidə viran edilmişdir.

## Şuşa, 12 may

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə mayın 12-13-də "Xarıbülbül" musiqi festivalı ölkəmizin mədəniyyət paytaxtı Şuşanın əsrarəngiz Cıdır düzündə yenidən təşkil olunub.



Festivalın açılışından əvvəl incəsənət xadimləri və qonaqlar "Yallı" və digər milli rəqslərimizi ifa ediblər.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən festivalın ilk günündə ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı "Azərbaycan musiqisində multikulturalizm" mövzusunda təqdim edilib. Ölkəmizin müxtəlif bölgələrində yaşayan ayrı-ayrı xalqların musiqi qrupları və ifaçıları öz

çıxışları ilə Azərbaycanın millətindən, dinindən asılı olmayaraq hər bir kəsin vahid Vətəni olduğunu, hər bir vətəndaşın da bu torpaq uğrunda yaşadığı ideyasını çatdırıb.

Festivalın birinci günündə əfsanəvi Bülbülün, Seyid Şuşinskinin, Xan Şuşinskinin, Rəşid Behbudovun, Şövkət Ələkbərovanın Azərbaycanı və Qarabağı vəsf edən unudulmaz ifalarının videoyazıları da nümayiş olunub.

"Xarıbülbül" musiqi festivalının birinci günü Xalq artisti Polad Bülbüloğlunun özünün bəstələdiyi "Azərbaycan - Odlar yurdum mənim" və "Şən Azərbaycan" mahnılarının ifası ilə başa çatıb.

Festival daha bir layihə ilə də yadda qalıb. Belə ki, festival zamanı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan "Əbədi imzalar" layihəsi təqdim olunub. Layihə çərçivəsində Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notları ilk dəfə toplu halında nəşr edilib. Topluya daxil edilən əsərlərin bir çoxu ilk dəfə işıq üzü görür. Heydər Əliyev Fondunun layihəyə cəlb etdiyi peşəkar heyətin iştirakı ilə əsərlər redaktə prosesindən keçib, Azərbaycanın və digər ölkələrin arxivlərində əsərlərin notları araşdırılıb, həmçinin bəstəkarların varislərinin iştirakı ilə müəlliflərin əlyazmaları üzrə müqayisələr aparılaraq seçilib və yenidən redaktə edilərək nəşr olunub.

Topluda Azərbaycan bəstəkarlıq məktəbinin 6 görkəmli nümayəndəsinin - Asəf Zeynallı, Cövdət Hacıyev, Fikrət Əmirov, Qara Qarayev, Niyazi və Vasif Adıgözəlovun əsərlərinin notları yer alıb. Toplu Azərbaycan musiqisi ənənələrinin, bəstəkarlarımızın əsərlərinin qorunub saxlanılması və yeni nəsil arasında təbliği baxımından mühüm əhəmiyyət daşıyır. "Əbədi imzalar" layihəsi çərçivəsində digər görkəmli

bəstəkarlarımızın da əsərlərinin notlarının təqdimatı nəzərdə tutulur.

**x x x**

Qeyd edək ki, "Xarıbülbül" musiqi festivalı ərəfəsində Heydər Əliyev Fondu tərəfindən, həmçinin "Xarıbülbül" beynəlxalq incəsənət festivalı təşkil olunub. İncəsənət festivalı zamanı xarıbülbül maketləri hazırlanıb və 13 ölkəni - Azərbaycan, Türkiyə, Pakistan, Estoniya, İordaniya, İraq, İsrail, Latviya, Mərakeş, Niderland, Rumıniya, Ukrayna və Yunanıstanı təmsil edən 32 rəssam - Anar Yolçiyev, Anastasia Tarasenko, Andris Vitolins, Dina Oskilko, Leyla Əliyeva, Nikole Bukrejeva, Rəhiməxanım Hacıyeva, Sare Kural, Yelena Haqverdiyeva, Zöhrab Salamzadə və digərləri Ermənistanın işğalından azad olunan ərazilərimizdə gördüklərini, yaşadıqları hissləri maketlərin üzərində çəkdikləri rəsm əsərləri ilə ifadə ediblər. Rəssamlar bu əsərləri Vətən müharibəsində əldə olunan Zəfərimizdən ruhlanaraq ərsəyə gətirib. Əsərlər "Xarıbülbül" musiqi festivalı zamanı Azərbaycanın mədəniyyət paytaxtı elan olunan Şuşada sərgilənib.

Xatırladaq ki, Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" musiqi festivalı ilk dəfə 1989-cu ilin mayında Şuşanın əsrarəngiz Cıdır düzündə təşkil edilib. Həmin il festival Ağdam rayonunun Abdal Gülablı kəndindən başlayıb, Şuşada davam edib və Ağdamda yekun konsertlə başa çatmışdı. Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının baş qaldırdığı vaxtda festivalın Şuşa şəhərində keçirilməsi həm də bu ərazilərin əsl sahiblərinin azərbaycanlılar olmasına dair verilən bir mesaj idi. 1992-ci il mayın 8-də Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilsə də, düşmən tapdağı altında qalan ərazilərimiz ötən müddətdə yerlə-yeksan olunsa da, Vətən müharibəsində əldə edilən Zəfər nəticəsində bu torpaqlarda

həyat yenidən dirçəlməyə başlayıb. İlham Əliyev Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayında çıxış edib



Aprelin 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayı işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurultayda geniş nitq söyləyib.

**Prezident İlham Əliyevin nitqi**

- Hörmətli qurultay iştirakçıları, sizi səmimiyyətlə salamlayıram, Şuşaya, Qarabağa xoş gəlmisiniz!

Xahiş edirəm ki, ilk növbədə, Vətən uğrunda canından keçmiş, qəhrəmancasına həlak olmuş əziz şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin!

Biz şəhidlərimizin qanını döyüş meydanında aldıq, qisasımızı düşməndən döyüş meydanında aldıq. Onların qanı yerdə qalmadı, bu, onların yaxınları üçün, qohumları üçün, bütün Azərbaycan xalqı üçün təsəlli verir.

Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir.

Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər.

Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu Öndərin

davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir.

Qarabağ münaqişəsinin həll edilməsi Prezident kimi mənim üçün başlıca vəzifə idi. Vəzifəyə seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir. Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq. Mən deyirdim ki, biz hər birimiz hər gün bu müqəddəs günü yaxınlaşdırmalıyıq, öz əməyimizlə, işimizlə, hərə öz yerində və torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi. Məhz buna görə ordu quruculuğu sürətlə aparılmışdır, buna görə Azərbaycan müasir orduya malik olmuşdur, buna görə gənc nəsil vətənpərvərlik, düşmənə nifrət, Vətənə sədaqət ruhunda tərbiyə olunurdu, buna görə iqtisadi islahatlar aparılmışdır. Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı dururdu. Biz buna öz gücümüzlə nail olduq. Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və heç vaxt bu xalq, Azərbaycan xalqı işğalla barışmaq fikrində deyildi.

Mən dəfələrlə, o cümlədən birinci Qurultaydan sonra keçirilmiş Dünya Azərbaycanlılarının qurultaylarında çıxış edərkən deyirdim ki, biz heç vaxt bu işğalla barışmayacağıq, nəyin bahasına olursa-olsun öz dədə-baba torpaqlarımızı işğaldan azad edəcəyik. Ancaq həqiqətən mən istəyirdim ki, bu məsələ sülh yolu ilə həll olunsun, müharibə yolu ilə yox. Çünki hesab edirdim ki, sülh yolu ilə bu məsələnin həlli mümkündür. Beynəlxalq hüququn norma və prinsipləri ölkəmizin mövqeyini müdafiə edirdi. Dünyanın aparıcı beynəlxalq təşkilatları Azərbaycanın mövqeyini dəstəkləyən və haqq-ədalətə söykənən qərar və qətnamələr qəbul etmişlər. Ermənistanın işğalçılıq siyasəti dünya miqyasında artıq heç kimə sirr deyildi. Eyni zamanda, Azərbaycanla Ermənistan arasındakı qüvvələr nisbəti bizim xeyrimizə böyük dərəcədə dəyişdiriləndən sonra hesab edirdim ki, Ermənistan rəhbərliyi də nəhayət dərk edəcək ki, bizimlə rəqabət aparmaq üçün onların heç bir resursu yoxdur - nə siyasi resursu, nə iqtisadi, nə də insan resursu yoxdur. Hesab edirdim ki, Ermənistanda nəhayət anlayacaqlar ki, XXI əsrdə qonşu dövlətin torpağının böyük hissəsini işğal altında saxlamaq mümkün deyil. Ancaq əfsuslar olsun ki, həm Ermənistan rəhbərliyi, eyni zamanda, beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar fərqli fikirdə idi və uzun sürən – 30 ilə yaxın davam edən danışıqlar, sadəcə olaraq, bu işğalı əbədiləşdirmək, Ermənistanın işğalçılıq siyasətini pərdələmək və bizi bu acı vəziyyətlə barışdırmaq məqsədi güdürdü. Əlbəttə, biz heç vaxt buna razı ola bilməzdik və Vətən müharibəsindəki göstərdiyimiz iradə, qətiyyət, döyüş meydanındakı qəhrəmanlıq bunu bir daha göstərdi. Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu

müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür. Biz sübut etmişik ki, ölümə getməyə hazırıq, öldü var, döndü yoxdur. Müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedirdilər, bilərəkdən ölümə gedirdilər Vətən uğrunda.

İkinci Qarabağ müharibəsində həlak olanların böyük əksəriyyəti gənc nəslin nümayəndələri idi. Onların heç biri Qarabağda olmamışdı, bu diyarı görməmişdilər, amma onların qəlbində yaşayan milli ruh, ədalət və Vətən sevgisi onları ölümə aparırdı. Biz bütün dünyaya sübut etdik ki, XXI əsrdə necə müharibə aparmaq lazımdır, ləyaqətlə müharibə aparmaq lazımdır, müasir üsullarla müharibə aparmaq lazımdır və cəmi 44 gün ərzində Ermənistan ordusu tamamilə məhv edilmişdir. Ermənistanın məhv edilmiş silah-sursatının, texnikasının və qənimət götürülmüş texnikasının qiyməti ən aşağı 4-5 milyard dollar təşkil edir. O başqa məsələdir ki, kasıb ölkə bu pulu haradan əldə edib. Ancaq demək olar ki, Ermənistan ordusu yoxdur. Ermənistan ordusunda müharibə zamanı kütləvi fərarilik hökm sürürdü, onların özlərinin etirafına görə, 10 min fərari olmuşdur Ermənistan ordusunda. Azərbaycan Ordusunda bir dənə də fərari olmamışdır. Budur, xalqımızın böyüklüyü, xalqımızın qələbəyə inamı, xalq-iqtidar birliyi və bütün dünya azərbaycanlılarının birliyi. Mən bilirəm ki, siz və sizin kimi xaricdə yaşayan milyonlarla azərbaycanlı hərə öz ölkəsində həm müharibənin gedişatını yaxından izləyirdiniz, eyni zamanda, öz çıxışlarınızda, öz şərhlərinizdə, sosial şəbəkələrdə və digər imkanlardan istifadə edərək, Azərbaycanın haqq səsini, haqq işini yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırırdınız. Buna bu gün də ehtiyac var. Bu gün də ehtiyac var, çünki müharibə başa çatsa da, bizə qarşı olan ərazi iddiaları hələ ki, başa çatmayıb.

Mən əminəm ki, bu da başa çatacaq. Əminəm ki, biz postmüharibə dövründə göstərdiyimiz səylər nəticəsində və bundan sonra göstərəcəyimiz səylər nəticəsində Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı ərazi iddialarını da aradan götürəcəyik. Ancaq bu gün hələ ki, bu iddialar var və biz buna hazır olmalıyıq. Biz müharibə dövründə - cəmi 44 gün ərzində 300-dən çox şəhər və kəndi döyüş meydanında azad etmişik. Məhz buna görə Ermənistan məcbur olub və noyabrın 10-da - noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Məhz biz Şuşanı noyabrın 8-də azad edəndən sonra Ermənistan rəhbərliyi nəhayət anladı ki, müharibəni davam etdirmək onlara daha baha başa gələcək. Halbuki əgər onlar müharibənin ilk günlərində dediyim sözlərimə əməl etsəydilər və bizə işğal edilmiş torpaqlardan onların çıxarılmasının tarixini, cədvəlini versəydilər, müharibə daha tez dayana bilərdi. Mən müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, nə vaxt torpaqlarımızdan çıxır və həmin an biz müharibəni dayandırmağa hazırıq. Belə də oldu. Ancaq məcburən bunu etdilər. Qırx dörd gün ərzində tamamilə məhv edilmiş Ermənistan ordusu və Ermənistan dövləti faktiki olaraq uçurum kənarında idi. Məcburən noyabrın 10-da kapitulyasiya aktı imzaladı və biz bir güllə atmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarını geri qaytardıq. Beləliklə, biz müharibəni hərbi-siyasi yollarla həll etdik. Yenə də deyirəm, təkbaşına, heç bir vasitəçi olmadan.

Vasitəçilərə gəldikdə, əfsuslar olsun ki, bu gün də hələ də Minsk qrupu haqqında Ermənistanda yüksəkvəzifəli şəxslər sözlər deyirlər. Hesab edirəm ki, bu, əbəsdir, bunun heç bir mənası yoxdur. Minsk qrupu faktiki olaraq 2019-cu ildə iflic

olmuşdur. 1992-ci ildə bu məsələni həll etmək üçün mandat almış bu qrup faktiki olaraq heç bir nəticə əldə etməmişdir. İndi bu qrupun tarixçəsinə və hərəkətlərinə, verdiyi təkliflərə nəzər yetirərkən bir daha görmək olar ki, bu qrup məsələni həll etmək üçün yaranmamışdır. Sadəcə olaraq, biz o vaxt bir qədər sadəlövh idik. Bu qrup məsələni həll etmək üçün yox, işğalı əbədiləşdirmək üçün yaradılmışdır. Minsk qrupunun həmsədr ölkələrində erməni lobbi qrupları çox təsirlidir. Məhz buna görə 28 il bu qrupun heç bir nəticəsi olmamışdır.

2019-cu ildə isə qrupun fəaliyyəti demək olar ki, dayanmışdır. Bunun da səbəbi Ermənistanın yeni rəhbərliyinin çox qəribə davranışı olmuşdur. Çünki Ermənistanın yeni rəhbərliyi 2018-ci ildə hakimiyyətə gələndə həm Minsk qrupunda, həm, - onu da açıq deməliyəm, - bizdə də bəzi ümidlər var idi ki, indi kriminal xunta rejim artıq devrildi və hakimiyyətə gələn yeni nəsil siyasətçilər reallığı dərk edəcəklər, anlayacaqlar ki, Azərbaycanla mübarizə aparmaq, müharibə aparmaq onların iqtidarında deyil. Demək olar ki, bir il ərzində aparılan fəal danışıqlar bu fikri daha da gücləndirirdi. Ancaq 2019-cu ildə Ermənistan rəhbərliyi tam fərqli mövqe sərgiləməyə başlamışdır. Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən cəfəng fikirlər faktiki olaraq danışıqlar prosesinə son qoymuşdur. "Qarabağ Ermənistandır və nöqtə" deməklə danışıqlar prosesinə son qoyuldu və bu açıqlamadan sonra mənimlə görüşə gələn Minsk qrupu demək olar ki, çox qeyri-müəyyən vəziyyətdə idi. Çünki bu bəyanatdan sonra hər hansı bir danışıqların aparılması qeyri-mümkündür. Çünki danışıqların mahiyyəti ondan ibarət idi ki, işğal altında olan torpaqlar azad olunacaq.

Faktiki olaraq Minsk qrupu ondan sonra, hətta görüntü naminə hər hansı bir fəaliyyət göstərə bilmədi. Ancaq Ermənistan rəhbərliyi daha uzağa getdi. Ondan sonra bizə qarşı açıq təhdidlər dilə gətirildi. Yeni torpaqlar uğrunda yeni müharibə ilə bizi hədələdilər. Amma yenə də beynəlxalq ictimaiyyət buna susdu. Bu, açıq təhdiddir. Özü də işğalçı dövlət tərəfindən işğala məruz qalan dövlətə qarşı növbəti təhdiddir. Yəni, bizi növbəti işğalla hədələyirdilər. Ancaq nə BMT, nə ATƏT, nə başqa təşkilatlar, nə Minsk qrupu heç bir açıqlama verməmişdi. Əlbəttə ki, işğalçı bundan ruhlanaraq daha da azğınlaşmışdı və faktiki olaraq Ermənistan tərəfindən onilliklər ərzində uydurduğu mifologiyaya inanmağa başlamışdı. Biz bu mifologiyanı darmadağın etdik, cəmi 44 gün ərzində düşməni torpağımızdan qovduq, Ermənistan bizim qabağımızda diz çökdü, başını əydi, kapitulyasiya aktına imza atmağa məcbur oldu, imdad dilədi və bu gün də həmin vəziyyətdədir. Bu gün də yer qalmayıb qapısını döyməsin ki, amandır Azərbaycan bizi hədələyir, Azərbaycan bizi burada boğmaq istəyir. Biz öz vəzifəmizi icra etmişik. Bizim başqa dövlətlərin torpağında gözümüz yoxdur, heç vaxt olmayıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi.

Yəni, münaqişəyə son qoyan Azərbaycan əsgəri oldu, qəhrəman Azərbaycan əsgəri. Müharibənin son hadisələri məhz burada - Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər. Şuşa Zəfərindən sonra faktiki olaraq Ermənistan cəmi bir gün direniş, - əgər buna direniş demək mümkündürsə, - göstərməyə cəhd etmişdir və

noyabrın 9-da artıq kapitulyasiya aktını imzalamağa hazır olduğunu bildirmişdir.

Biz müharibəni də ləyaqətlə aparmışıq, postmüharibə dövründə də özümüzü ləyaqətlə aparırıq. Artıq postmünaqişə dövrünün nəticələri haqqında danışmaq olar. Çünki bir daha demək istəyirəm, bizim Qələbəmiz, özü də 44 gün ərzində əldə etdiyimiz Qələbə bir çoxları üçün gözlənilməz idi. Hərbi ekspertlər, siyasətçilər, bu məsələ ilə məşğul olan müxtəlif təşkilatların nümayəndələri bizə həmişə deyirdilər ki, bu müharibəni Azərbaycan uda bilməz. Çünki Ermənistan bu 30 il ərzində işğal edilmiş torpaqlarda istehkamlar qurmuşdur, müdafiə xətləri qurmuşdur. Eyni zamanda, Qarabağın təbii relyefi elədir ki, torpaqları azad etmək çətin olacaq. Çoxlu itkilər olacaq, ancaq nəticədə bütün bu fərziyyələr demək olar ki, etibarsız oldu.

Onlar bir məsələni diqqətdən kənarda qoymuşdular - Azərbaycan xalqının əzmini, Azərbaycan əsgərinin gücünü, Vətən sevgisini. Bəli, düzdür, bəzi yerlərdə beş, bəzi yerlərdə altı müdafiə xətti qurulmuşdu, istehkamlar qurulmuşdu, tikanlı məftillər, dəmir parçaları və sair. Bölgənin coğrafiyası bizim üçün çox əlverişsiz idi. Bütün bunlara baxmayaraq, az itki verməklə, Ermənistan ordusundan iki-üç dəfə az itki verməklə biz tarixi missiyamızı yerinə yetirdik və son nöqtəni burada - tarixi şəhərimizdə qoyduq.

Bu gün Şuşaya gələn hər bir insan, hər bir azərbaycanlı görür ki, Şuşa Azərbaycan şəhəridir. Əgər belə olmasaydı, Şuşa belə ağır vəziyyətdə olmazdı. Siz, indi buraya gələn qonaqlar müharibədən ilyarım keçəndən sonra gəlirsiniz. Əgər müharibədən dərhal sonra gəlsəydiniz, görərdiniz ki, nə vəziyyətdədir. Hələ də dağılmış vəziyyətdədir. Ancaq Şuşa

bərpa olunur, Şuşa dirçəlir və Şuşanın dirçəlməsi ilə bağlı gedən işlər çox genişmiqyaslıdır və bu haqda sizə məlumat veriləcək.

Əgər bu şəhər ermənilərə mənsub olsaydı, bu günə qoyardılarmı bunu? Burada cəmi 1800 adam yaşayırdı. Özü də onların 90 faizi hərbçilər və onların ailə üzvləri idi. Burada bir dənə də salamat tarixi bina qalmamışdır. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular, məscidlərimizi təhqir etmişdilər, sökmüşdülər, saraylarımızı sökmüşdülər. Yəni, bir dənə də burada yeni bir bina tikilməmişdi. Sadəcə olaraq, bizim təbii sərvətlərimizi istismar ediblər və təkcə Şuşa yox, bütün digər şəhərlər də eyni vəziyyətdədir. Tamamilə dağılmış Ağdamı xarici ekspertlər, jurnalistlər Xirosimaya bənzədirlər. Bəli, Xirosima atom bombası nəticəsində məhv edildi. Ağdam və digər şəhərlər erməni vandallığı nəticəsində məhv edildi. Birinci Qarabağ müharibəsi dayanandan sonra 30 il ərzində binaları daş-daş söküb, daşıyıb satmışdılar və beynəlxalq təşkilatların hesabatlarında bu, var. Qəbirləri qazırdılar, ölülərin qızıl dişlərini çıxarırdılar. Yəni, Ermənistan və erməni xalqı bu vəhşiliyə görə dünya miqyasında rəzil oldu. Ona görə gələn hər qonaq, azad edilmiş torpaqlara gedən hər qonaq erməni vəhşiliyini görür və görməlidir. Görməlidir ki, biz təkcə işğalçını yox, faşistləri məhv etdik. Onların Birinci Qarabağ müharibəsində, İkinci Qarabağ müharibəsində, iki müharibə arasındakı dövr ərzində bütün əməlləri faşist əməlləridir. Bizim dinc şəhərlərimizi müharibə dövründə ballistik raketlərlə atəşə tutmaq, insanları məhv etmək faşizm deyil, bəs nədir? “Tocka-U”, “SCUD”, “İskəndər-M” raketi ilə Şuşa vurulmuşdu. Qar əriyəndən sonra Şuşada, şəhərin mərkəzində “İskəndər-M” raketinin qalıqları aşkarlanmışdır və bir daha biz sübut etdik ki, Ermənistan bu ölümcül silahdan, qadağan edilmiş silahdan və

onlarda heç cür olmayan silahdan istifadə edib. Buna inanmayanlar gəlib Hərbi Qənimətlər Parkında "İskəndər-M" raketinin qalıqlarını görə bilərlər.

Biz faşizmi məhv etdik. Biz Cənubi Qafqazı faşizmdən xilas etdik. Ancaq hələ də faşizmin təzahürləri baş qaldırır, hələ də Ermənistanda bəzi dairələr və dünya erməniliyi, xarici ölkələrdə yaşayan ermənilər bizi hədələməyə çalışırlar. Amma İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır. Biz gücümüzü artırmışıq. İlyarım ərzində ordu quruculuğu sahəsində çox böyük işlər görüldü. Bu işlərin bir hissəsi ictimaiyyətə təqdim edildi, bir hissəsi, əlbəttə ki, təqdim edilə bilməz. Ancaq hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və biz hər an erməni faşizmini,- əgər bir daha baş qaldırsa, - əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı bilir, yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır.

Biz bundan sonra ancaq və ancaq güclənəcəyik və postmüharibə dövrü bunu bir daha göstərdi. Həm ərazilərin bərpası, həm beynəlxalq müstəvidə addımlarımız bizim gücümüzü göstərdi. Çünki postmüharibə dövrü çox həssas bir dövrdür və artıq ilyarım keçəndən sonra tam əminliklə demək olar ki, biz bu çətin sınaqdan da şərəflə çıxdıq. Aparıcı beynəlxalq təşkilatlar postmüharibə reallıqlarını qəbul etdilər. BMT, hansı ki, Şuşada beynəlxalq tədbir keçirmişdir. Avropa İttifaqı hazırda Azərbaycan-Ermənistan arasında normallaşma prosesində çox fəal iştirak edir. ATƏT, hansı ki, çox yaxşı başa düşür Minsk qrupu artıq yoxdur. Düzdür mən, bir neçə ay

bundan əvvəl, hələ Rusiya-Ukrayna müharibəsindən əvvəl demişdim, məndən soruşmuşdular ki, Minsk qrupu nə ilə məşğul olacaq? Dedim ki, 2022-ci ildə onların yaranmasının 30 illik yubileyidir. Yubiley keçirəcəklər, sonra pensiyaya gedəcəklər. Amma Rusiya-Ukrayna müharibəsi başlayandan sonra heç yubiley keçirməyə bunlarda fürsət olmadı.

Digər beynəlxalq təşkilatlar - məsələn, sədrlik etdiyimiz Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləmişlər və postmünaqişə reallıqlarını qəbul etmişlər. İndi qonşu ölkələr 3+3 formatda beş ölkə hazırda əməkdaşlıq formatı yaradıbdır. Qonşu ölkələrin hamısı postmünaqişə reallıqlarını qəbul etmişlər. Böyük dövlətlər – Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Amerika Prezidenti, Böyük Britaniyanın Baş naziri mənə göndərdikləri məktublarda bu, açıq-aydın göstərilir. Yəni, biz artıq bu mərhələni keçdik və bundan sonra Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması məsələsi gündəlikdədir. Yenə də bu gündəliyi biz ortaya qoyduq. Bütün ağrılı məqamlara baxmayaraq, işğala baxmayaraq, edilmiş bu vəhşiliklərə baxmayaraq, bölgənin gələcəyi naminə biz hesab edirik ki, buna ehtiyac var və biz sülh gündəliyi təqdim etdik və Ermənistandan hər hansı bir cavab gəlmədi. Beynəlxalq təşkilatlar da demək olar ki, buna o qədər də maraq göstərmədilər. Ona görə biz konkret olaraq beş prinsipdən ibarət təklif irəli sürdük və Ermənistan bu beş prinsipi qəbul etdi. Beləliklə, Ermənistan rəhbərliyi rəsmən bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycana hər hansı bir ərazi iddiası yoxdur və gələcəkdə də olmayacaq. Hesab edirəm ki, bu, postmünaqişə dövrü üçün vacib məqamdır və biz məhz bu beş prinsip əsasında danışıqları aparmaq fikrindəyik.

Hazırda iki ölkənin xarici işlər nazirləri, nazirlikləri işçi qrupları formalaşdırır və hesab edirəm ki, yaxın gələcəkdə konkret danışıqlara başlamaq lazımdır və danışıqları çox uzatmaq lazım deyil. Çünki məhz beş prinsip əsasında sülh müqaviləsi imzalanacaq. Ona görə müqavilənin mətni tezliklə hazırlana bilər, imzalana bilər və beləliklə, Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə bir daha biz xoş niyyətimizi göstəririk və yenə də deyirəm, uzaqgörənlik göstəririk. Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq.

Amma yenə də dediyim bütün bu müsbət məqamlara baxmayaraq, hər birimiz – həm Azərbaycan hökuməti, həm səfirliklər, diaspor təşkilatları, bütün fəallar yeni reallıqları dünya ictimaiyyətinə çatdırmalıdırlar. Sizin – xaricdə yaşayan azərbaycanlıların bu sahədə daha böyük imkanlarınız var. Son illər ərzində bizim diaspor təşkilatlarımız çox fəallaşıb, həm İkinci Qarabağ müharibəsində biz bunu gördük, həm də ondan əvvəlki dövrdə. Hətta erməni radikal qüvvələrinin fiziki hücumlarına baxmayaraq, - onlar yenə də say çoxluğundan istifadə edib bizim fəallara qarşı cinayət törətmişlər, - azərbaycanlılar öz sözünü demişdilər, bu gün də bunu etmək lazımdır.

Yəni, yaşadığınız ölkələrin ictimaiyyətini, əgər belə demək mümkündürsə, maarifləndirmək lazımdır - həm Azərbaycan

reallıqları haqqında, postmünaqişə dövrü haqqında və Azərbaycan tarixi haqqında. Hesab edirəm ki, bu, çox vacibdir. Çünki tarixi amillər həmişə istənilən münaqişənin siyasi və digər yollarla həll edilməsi üçün çox vacibdir. Tarix də göz qabağındadır. Uzaq tarixə getməyə ehtiyac yoxdur. Sadəcə olaraq, XIX əsrdə imzalanmış müqavilələri beynəlxalq ictimaiyyətə çatdırmaq kifayətdir. Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələri. Orada erməni əhalisindən söhbət getmir. Kürəkçay müqaviləsini İbrahimxəlil xan Şuşalı və Qarabağlı, - titulu belə də gedib, - imzalayıb. XIX əsrin bu tarixi hadisələrindən sonra Qarabağa ermənilərin kütləvi köçü başlamışdır. Bu da heç kimə sirr deyil və artıq dünya ictimaiyyəti, ekspertlər bunu bilir, yaxşı olar ki, geniş ictimaiyyət də bunu bilsin. Azərbaycan xalqına qarşı edilən haqsızlıqlar haqqında biz beynəlxalq ictimaiyyəti mütləq məlumatlandırmalıyıq. XIX əsrdə, XX əsrin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi. 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Zəngəzurun Azərbaycandan qoparılıb Ermənistana verilməsi, bu da tarixi faktdır. Ondan iki il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin İrəvanı Ermənistana bağışlaması, bu da sənədlərlə təsdiq olunan faktdır. 1921-ci ildə sovet hakimiyyəti tərəfindən bizə qarşı növbəti təxribat hazırlanırdı. Zəngəzur 1920-ci ilin noyabrında bizdən qoparıldı, bir il sonra Qafqaz Bürosu Qarabağı da bizdən qoparmaq istəyirdi. Ancaq alınmadı və qərar qəbul olundu ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Amma buna baxmayaraq, ilyarım keçəndən sonra –1923-cü il iyulun 7-də Azərbaycan ərazisində tamamilə əsassız, süni bir qurum yaradıldı - Dağlıq Qarabağ Muxtar Vilayəti. Bunun yaradılmasının heç bir əsası yox idi. O vaxt indiki Ermənistanda

yaşayan azərbaycanlıların sayı Qarabağda yaşayan ermənilərlə müqayisədə bəlkə də iki dəfə çox idi. Ancaq nədənsə, bu muxtar vilayəti orada yox, burada yaradıblar. Bunu yaradıblar və eyni zamanda, qədim Azərbaycan şəhərini – Şuşanı da onun tərkibinə salıblar, bir məqsədlə ki, Şuşa erməniləşsin. Çünki Şuşa tək bir qala kimi qalmışdı və yaxşı bilirsiniz ki, Şuşaya bütün yollar ermənilərin məskunlaşdığı yerlərdən keçirdi, ərazilərdən keçirdi. Yəni, Şuşaya gəlmək üçün mütləq ermənilərin yaşadıqları kəndlərdən keçmək lazım idi. İndi biz Zəfər yolunu çəkmişik. Zəfər yolunu bizim əsgər, zabitlər ayaqla açdılar, o dağın, dərənin, meşənin içi ilə. Yəni, bu da təxribat idi. Yəni, Şuşanı bizdən qoparmaq üçün, erməniləşdirmək üçün Şuşanı da saldılar bu süni qurumun tərkibinə. Amma alınmadı, nə qədər çalışsalar da, alınmadı. Şuşa öz milli ruhunu o vaxt həmişə qoruyurdu və işğal dövründə ermənilər Şuşanı erməniləşdirə bilmədilər.

Ondan sonra 1940-1950-ci illərdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası, - bu da xalqımız üçün böyük faciə və böyük ədalətsizlik idi. Azərbaycanlılar öz tarixi torpaqlarından Azərbaycanın Mil-Muğan zonasına zorla köçürülmüşdür. O Azərbaycana qarşı bu edildi ki, İkinci Dünya müharibəsində 300 min Azərbaycan övladı müharibəyə getdi, qayıtmadı. O Azərbaycan ki, İkinci Dünya müharibəsində Sovet Ordusunun yanacağının 90 faizini verirdi. Əgər Azərbaycan olmasaydı, Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı müharibədə qələbə qazana bilməzdi və 3-4 il bundan sonra xalqımıza qarşı bu ədalətsizlik hansı mənəviyyata sığır?

Bu, tarixdir. Bu tarixi biz bilməliyik. Bu tarixi bilmədən 1980-1990-cı illərin tarixi yarımçıq qalacaq. Ondan sonra 1980-ci illərin sonlarında başlamış separatizm meyilləri faktiki olaraq

Qarabağın böyük hissəsini Azərbaycandan qopardı. Hələ Sovet İttifaqı dövründə bunu etdilər. Xüsusi idarəetmə komitəsi yaradıldı və Moskvadan bir ermənipərəst adam təyin olundu. Ondan sonrakı tarix də bəllidir. Bax, bizim xalqımız iki əsr ərzində bütün bu iztirablardan keçib və nəhayət öz sözünü deyib. Nəhayət "dəmir yumruq"la düşmənin başını əzib, tarixi ədaləti və milli ləyaqəti bərpa edibdir. Ona görə, çox vacibdir ki, bu tarixi məqamlar daim diaspor təşkilatlarının gündəliyində olsun. Əlbəttə, mən çox şadam ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycan ilə daim təmasdadırlar, Dövlət Komitəsi ilə təmasdadırlar və müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında koordinasiya da təkmilləşir. Bu da çox vacibdir. Əlbəttə, biz hamımız – Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar. Heç olmasa, ildə bir dəfə hər bir azərbaycanlı öz ailəsi ilə Azərbaycana gəlsə, çox yaxşı olar - xüsusilə azad edilmiş torpaqlara getmək üçün. İndi bu gün biz qurultayı Şuşada keçiririk. Ancaq azad edilmiş ərazilər 10 min kvadratkilometrdən çoxdur və indi marşrutlar da açılır, aeroportlar da tikilir. Ona görə gəliş-gediş çox rahat olacaq.
Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu, o qədər də asan məsələ deyil. Burada onlar, ilk növbədə, Azərbaycan dilini bilməlidirlər. Burada, əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində, bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış

şəkildə etmək lazımdır. Çünki Ana dili əsas amildir. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir.

Bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Yəni, bir sözlə, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir. Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, Azərbaycan maraqlarının müdafiə edilməsi, əlbəttə ki, bizim dövlətimizi daha da gücləndirir. Biz Azərbaycan dövləti olaraq öz fəaliyyətimizdə həmişə xaricdə yaşayan azərbaycanlıların yaşayışı ilə maraqlanırıq, təmaslar qururuq. Dövlətlərarası münasibətlər müstəvisində bu, önəmli bir amildir. Mən də öz həmkarlarımla, harada ki, azərbaycanlılar yaşayır, o ölkələrin rəhbərləri ilə daim bu məsələyə diqqət yetirirəm.

Şuşada keçirilən qurultayın çox böyük tarixi mənası var. Bu gün Azərbaycan yeni dövrə qədəm qoyub. Biz otuz il torpaqları işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi. Mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün – xaricdə yaşayan azərbaycanlılar üçün. Biz bilirdik ki, bu məğlubiyyətin heç bir real əsası olmamışdır. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr - hakimiyyət uğrunda gedən müharibə, milli xəyanət, satqınlıq və digər bəd əməllər, bax, bu vəziyyəti yaratmışdır. Biz bilirdik ki, bu Qələbəyə layiqik. Bir daha demək istəyirəm, - çıxışımın əvvəlində mən bunu dedim, - mənim üçün Prezident kimi başlıca vəzifəm ölkəmizi gücləndirmək və ərazi bütövlüyümüzü bərpa etmək idi. Sizin üçün də çox çətin idi. Çünki sizin yaşadığınız ölkələrdə erməni diaspor təşkilatları var. Siz ermənilərlə istər-istəməz hansısa ünsiyyətdə olursunuz, görüşürsünüz, ya da ki,

haradasa tədbirlərdə bir yerdə olursunuz. Mən başa düşürəm ki, bu dövr sizin üçün çox ağır idi.

Ancaq bu gün vəziyyət tam başqadır. Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz.

Yaşasın Şuşa! Yaşasın Qarabağ! Hamımız birlikdə: Qarabağ Azərbaycandır! Sağ olun.

## Şuşada Beynəlxalq Kulinariya Festivalı



Mayın 5-dən 8-dək Heydər Əliyev Fondu və Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada müxtəlif ölkələrin kulinarları bir araya gəliblər.
Heydər Əliyev Fondundan verilən xəbərə görə, Şuşa Beynəlxalq Kulinariya Festivalında bu şəhərin qədimliyi, gözəlliyi, Azərbaycan xalqının qonaqpərvərliyi bir daha nümayiş olunub.
Festivalda Almaniya, Avstriya, Çin, Fransa, Gürcüstan, İndoneziya, İran, İsrail, İtaliya, Malayziya, Türkiyə və Yaponiyadan kulinarlar qonaqları ölkələrinin təamları ilə tanış ediblər. Qonaqlar peşəkar aşpazların ustad dərslərində də iştirak edib yemək hazırlamağın incəliklərini öyrəniblər.
Kulinariya festivalında Azərbaycanın Abşeron-Xızı, Bakı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Lənkəran-Astara, Mərkəzi Aran, Naxçıvan, Qarabağ, Quba-Xaçmaz, Şəki-Zaqatala və digər iqtisadi rayonları da təmsil olunub. Festival günlərində 11 milli, 11 xarici pavilyon qurulub, qonaqlar Azərbaycanın bölgələrinin, eləcə də dünya mətbəxinin nümunələrinin dadına baxıblar.
Tədbirə Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, İtaliya, İsrail, Kanada, Koreya, Rusiya, Türkiyə və digər ölkələrdən qida sahəsi üzrə beynəlxalq ekspertlər, bloqerlər də qatılıblar.
Festival günlərində qonaqlara incəsənət ustalarının iştirakı ilə bədii proqram təqdim edilib. İstirahət və əyləncə zonasındakı pavilyonlarda tamaşalar, konsert və sərgilər təşkil olunub.
Azərbaycanın milli sənətkarlıq nümunələri də sərgilənib. 5 may – Xalçaçı Günündə "Azərxalça" ASC-nın yaradıcı heyəti xalçaçılıq ənənələrinə dair interaktiv təqdimatlar edib. Festivalda Bakı Kitab Mərkəzi tərəfindən Heydər Əliyev Fondunun kulinariyaya dair nəşrləri də təqdim olunub.

Festival çərçivəsində mayın 3-dən 9-dək Şuşada 30-dan çox Azərbaycan rəssam və heykəltəraşının iştirakı ilə "Şuşa. Bahar əfsanəsi" adlı plener keçirilib. Təbiət qoynunda yaradılacaq əsərlər vaxtı ilə işğal altında olmuş bir şəhərin hazırkı vəziyyətini, füsunkar təbiətini canlandırıb. Festival zamanı Şuşada təkcə dünya xalqlarının təamları deyil, həmçinin müxtəlif ölkələrin maddi-mənəvi dəyərləri təqdim edilib. Bu konsepsiyaya əsasən, pavilyonlar da fərqli formatda quraşdırılıb. Hər pavilyon qonaqları həmin ölkəyə xas memarlıq üslubu, milli musiqi ilə salamlayıb, tanınmış əsərlərdən parçalar səhnələşdirilib. Tədbir zamanı hər bir ölkənin pavilyonunda həmin ölkələrin mədəniyyətlərinə aid xüsusi personajlar yer alıb, qonaqları maraqlı nömrələrlə əyləndiriblər. Festival günlərində incəsənət ustalarının iştirakı ilə bədii proqram təqdim edilib, istirahət və əyləncə zonasındakı pavilyonlarda tamaşalar, konsert və sərgilər təşkil olunub.

Şuşa Beynəlxalq Kulinariya Festivalı işğaldan azad olunan şəhər və rayonlarımızın dirçəldilməsi, otuz ildən sonra bu torpaqlara yenə ruzi və bərəkətin, əmin-amanlığın qayıtmasının rəmzi ifadəsi olub.

Kulinariya festivalının son günündə Azərbaycanın milli musiqiləri səsləndirilib, qonaqlara yerli tamaşa və filmlərdən səhnəciklər təqdim edilib.

Festival tədbir iştirakçılarının Azərbaycanın milli rəqsi olan "Yallı" sədaları altında rəqsi ilə yekunlaşıb.

**Ədəbiyyat siyahısı**
**Şuşa**
**Kitablarda**


**Ağamirov M. M.** Nəğmə dolu Şuşam mənim!. - Bakı: Nurlar NPM, 2013. - 264 s.

**Axundbəyli.** Şuşa həsrəti. - Bakı: Azərnəşr, 2005. - 460 s.

**Dilsuz**. Şuşa. - Bakı: Beşik, 2008. - 14 s.

Gözlə bizi, Qarabağ !... : Metodik vəsait. - Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2007. - 84 s.

**Kərimov İ. S.** Şuşa-Ağdam Teatrı. - Bakı: Elm, 2001. - 140 s.

**Xəyal S.** Şuşa bayraqdarını gözləyir. - Bakı: MBM, 2011. - 80 s.

**Xəlilzadə F.** Ruhumuzun ünvanı Şuşa. - Bakı: Zərdabi LTD MMC, 2013. - 368 s.

**Mahmudov Y. M.** Şuşa - Pənahabad. - Bakı: Təhsil, 2012. - 152 s.

**Mahmudov Y. M.** Qarabağ: Real tarix, faktlar, sənədlər. - Bakı: Təhsil, 2009. - 144 s.

**Mehman S.** İşğal: Qarabağ trilogiyası. I kitab : Şuşada qalan partizanlar haqqında ilk roman. - Bakı: Qələm, 2013. - 272 s.

**Miskinli K.** Ot kökü üstə bitər : I hissə. - Bakı: Ozan, 2009. - 216 s.

**Nağıyeva M.** Xarıbülbül və Günəşin nağılı. - Bakı: Bakı Uşaq Nəşriyyatı, 2021. - 44 s.

**Nuruqızı S.** Ağabəyim ağa. - Bakı: Aspoliqraf, 2010. - 16 s.

Ölümü fəth edənlər : Rəşadətlə yaşayanlar-Ölümü fəth edənlər toplusu. 8 Noyabr - Zəfər Günü münasibətilə uşaq və yeniyetmələr arasında keçirilən ümumrespublika hekayə müsabiqəsi. - Bakı: Təhsil, 2021. - 112 s.

Şuşa **- Azərbaycanın tarix və** mədəniyyət incisidir : Elmi konfransın materialları 7 may 2004-cü il. - Bakı : Nağıl evi, 2005. - 88 s.

Şuşa **şəhərinə həsr** olunmuş elmi konfransın materialları : 22 dekabr 2000-ci il. – Bakı: 2000. - 83 s.

Zəfər qoxusu : antologiya. - Bakı: Təknur, 2020. - 142 s.

**Dövrü mətbuatda**

**Adilqızı N.** Əziz Şuşa sən azadsan!. // Respublika. - 2021. - 8 may. - № 97. - S. 7.

**Anar.** Gözün aydın Şuşam, gözümüz aydın! // 525-ci qəzet. - 2020. - 11 noyabr. - № 150. - S. 13.

**Aslan Q.** Şuşa mədəniyyət paytaxtımızdır // Respublika. - 2022. - 13 fevral. - № 33. - S. 4.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar : Dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan Şəhidlər

xiyabanında Azərbaycan xalqına müraciət edib // Xalq qəzeti. - 2020. - 11 noyabr. - № 234. - S. 3-4.

**Azərbaycan renessansının vətəni-**Şuşa // 525-ci qəzet. - 2020. - 20 noyabr. - № 157. - S. 10.

**Bağırlı A.** Möcüzəli və saf Şuşa : esse // Ədəbiyyat qəzeti. - 2020. - 14 noyabr. - № 50. - S. 19.

**Baxşəliyev R.** Şuşa - uzunömürlülük fenomeni // Azərbaycan : qəzet. - 2022. - 3 fevral. - № 24. - S. 10.

**Baxşəliyev R.** Ali Baş Komandana Lələtəpədən əsgər raportu: "Şuşada, Xankəndidə zəfər NİDAsını qoymağa tam hazırıq": // Azərbaycan : qəzet. - 2019. - 13 oktyabr. - № 227. - S. 1, 3.

**Bayramov V.** Başından duman - çən çəkildi, Şuşam! : Əziz Şuşa, biz qayıtmışıq, sən azadsan! // Xalq qəzeti. - 2020. - 12 noyabr. - № 235. - S. 8.

**Əhmədov E.** Şuşa-tarixi, mədəni və strateji əhəmiyyətli şəhər : müsahibə / söhbətləşdi: Əliqismət Bədəlov // Xalq qəzeti. - 2022. - 11 yanvar. - № 5. - S. 3.

**Əhmədov E.** Heydər Əliyev : Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur // Xalq qəzeti. - 2019. - 8 may. - № 100. - S. 11.

**Əhmədov E.** Şuşa - Azərbaycanın banisi : Şuşanın işğalından 28 il ötür // Xalq qəzeti. - 2020. - 8 may. - № 90. - S. 14.

**Əhmədov E.** Şuşa - 28 illik həsrətə son // Xalq qəzeti. - 2020. - 14 noyabr. - № 237. - S. 7.

**Əkbərova R.** Əziz Şuşa biz qayıtmışıq! : İyirmi doqquz ildən sonra 8 may azadlığı // İki sahil. - 2021. - 8 may. - № 82. - S. 7.

**Ələddinqızı N.** Qafqazın sənət məbədi öz ahənginə qovuşur // Səs. - 2020. - 8 dekabr. - № 219. - S. 10.

**Ələddinqızı N.** Qafqazın incisi Şuşa 270 illiyini qeyd edəcək // Səs. - 2021. - 19 may. - № 86. - S. 5.

**Əliyeva X.** Şuşa sevgisi hər bir azərbaycanlının qəlbində xüsusi yer tutur // Xalq qəzeti. - 2022. - 16 fevral. - № 35. - S. 7.

**Əliyeva Y.** Şuşanın alınması bir möcüzə sayılır : Zəfər yolu bu möcüzəyə aparan şanlı tariximizdir // İki sahil. - 2021. - 9 sentyabr. - № 162. - S. 2.

**Əsədli M.** Şuşa milli mədəniyyətimizin tacıdır : // Xalq qəzeti. - 2021. - 3 sentyabr. - № 186. - S. 4.

**Faxralı R.** Ay Vətən, ay Vətən, gözümüz aydın!. // İki sahil. - 2020. - 12 noyabr. - № 201. - S. 25.

**Fərəcova Z.** Güllələnmiş heykəllər yurduna döndü : Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır // Azərbaycan : qəzet. - 2021. - 16 mart. - № 58. - S. 8.

**Fərəcova Z**. Şuşa qalasının Gəncə qapısı // Azərbaycan : qəzet. - 2021. - 16 mart. - № 58. - S. 8.

**Fərəcova Z.** Şuşa Qarabağın baş tacıdır // Azərbaycan : qəzet. - 2020. - 20 noyabr. - № 242. - S. 5.

**Fərəcova Z.** Şuşanın Bülbülü... : Şuşa Azərbaycandır! // Azərbaycan : qəzet. - 2021. - 18 may. - № 100. - S. 10.

**Fərəcova Z.** Vaqif türbəsi : Qədim Şuşada tariximizin rəmzidir. // Azərbaycan : qəzet. - 2022. - 23 yanvar. - № 15. - S. 6.

**Fərəcova Z.** Yenidən çağlayan "Xan qızı" bulağı : 2022-ci il "Şuşa İli"dir // Azərbaycan : qəzet. - 2022. - 9 yanvar. - № 4. - S. 5.

**Hacıyev İ.** Mədəniyyət paytaxtına çevrilən Şuşa əsl ilham çeşməsidir // Azərbaycan : qəzet. - 2021. - 20 iyun. - № 127. - S. 3.

**Heydər Əliyev:** Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir // İki sahil. - 2019. - 9 may. - № 84. - S. 16-17.

**Həsənzadə N.** Şuşa Vətəndi ; Məhəbbət ; İnciyir və b. // Ədəbiyyat qəzeti. - 2019. - 27 aprel. - № 14. - S. 2-4.

**Hüseynov R.** Üçqat əziz : Şuşa haqqında // 525-ci qəzet. - 2020. - 11 noyabr. - № 150. - S. 6-8.

**Hüseynov R.** Şuşa yolu // 525-ci qəzet. - 2020. - 21 noyabr. - № 158. - S. 6-8.

**Hüseynova E.** Şuşa toponiminin etimologiyası və onun məhəllələrinin tarixi // Respublika. - 2022. - 30 yanvar. - № 21. - S. 4.

**İlyasov V.** Mədəniyyət paytaxtımız Şuşa necə yaranıb? // İki sahil. - 2022. - 7 yanvar. - № 2. - S. 5.

**İsmayılqızı X.** Qələbə müjdəsini Şuşadan gözləyirik, Azərbaycan əsgəri! // İki sahil. - 2020. - 21 oktyabr. - № 186. - S. 28.

**İsmayılqızı X.** Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur // İki sahil. - 2021. - 1 aprel. - № 55. - S. 15.

**İsmayılov S.** Şuşanı başı dik və vüqarlı gördük // İki sahil. - 2021. - 29 dekabr. - № 239. - S. 6.
**İsmayılov İ.** Şuşanın günəşi // İki sahil. - 2021. - 11 iyun. - № 102. - S. 8-9.

Qarabağ-mədəniyyətimizin beşiyi : **Şuşa** qalası ; Köçərli məscidi ; Məmər məscidi və Gürcülü türbəsi ; Xudafərin körpüləri ; Şahbulaq qalası // Mədəniyyət. - 2020. - 28 oktyabr. - № 79. - S. 4.

Qarabağ-mədəniyyətimizin beşiyi : Mədəniyyət irsimizi tanıyaq və tanıdaq // Mədəniyyət : jurnal. - 2020. - № Noyabr/dekabr. - S. 98-104.

**Qaraxanlı E.** Şuşa - Pənahəlidən İlham Əliyevə qədər // Ədəbiyyat qəzeti. - 2021. - 19 iyun. - № 26. - S. 7.

**Qasımoğlu N.** Şuşaya az qalıb... // Ədəbiyyat qəzeti. - 2020. - 31 oktyabr. - № 48. - S. 4-5.

**Qasımzadə İ.** Şuşanın dolayları // 525-ci qəzet. - 2021. - 10 iyul. - № 121. - S. 10-11.

**Qasımbəyli S.** Xatirəmdə yaşayan Şuşa // Azərbaycan : qəzet. - 2022. - 30 yanvar. - № 21. - S. 5.

**Qənizadə Ç.** Qarabağın tacı - Şuşa : Söhbəti qələmə aldı: Ə. Bədəlov // Xalq qəzeti. - 2022. - 8 yanvar. - № 3. - S. 4.

**Quliyev V.** Puşkin və Şuşa // 525-ci qəzet. - 2020. - 1 fevral. - № 12. - S. 10-11.

**Qurbanoğlu Ə.** Salam, cənnət Qarabağın gözəllik tacı Şuşam!. // İki sahil. - 2020. - 11 noyabr. - № 200. - S. 28.

**Qurbanqızı Z.** Bir incisən, gözəl Şuşa! // Respublika. - 2022. - 30 yanvar. - № 21. - S. 4.

**Məhəbbətoğlu Q.** Şuşa öz tarixiliyinə qovuşacaq // İki sahil. - 2021. - 19 mart. - № 51. - S. 15.

**Məmməd T.** Şuşa ədəbi məclisləri: funksiya və missiyası // Ədəbiyyat qəzeti. - 2020. - 14 noyabr. - № 50. - S. 24-25.

**Məmmədli B.** Sədaqətinə qurban, Şuşa! // Kaspi. - 2020. - 21 noyabr. - № 153. - S. 3.

**Məmmədov B.** Şuşanın azad edilməsi Böyük Qələbəmizi tezləşdirdi // Xalq qəzeti. - 2020. - 12 noyabr. - № 235. - S. 8.

**Məmmədova M.** 270 ilin şəhəri, 44 günün əsəri, 2022-nin gözəli // Səs. - 2022. - 1 mart. - № 38. - S. 8.

**Mirələmov H.** Şuşanın İlham Əliyev zirvəsi // Azərbaycan : qəzet. - 2021. - 2 aprel. - № 66. - S. 1, 5.

**Mirzə M.** Azərbaycanın döyünən ürəyi - Şuşa // Respublika. - 2021. - 18 may. - № 100. - S. 1, 2.

**Mirzə M.** Sənət məbədi: Şuşa // Respublika. - 2022. - 5 fevral. - № 26. - S. 8

**Mirzə M.** Şuşa Qarabağın tacıdır // Respublika. - 2021. - 30 dekabr. - № 285. - S. 12.

**Mirzəbəyli İ.** Müqəddəs bayrağımız artıq Şuşada qürurla dalğalanır // Xalq qəzeti. - 2020. - 29 noyabr. - № 250. - S. 5.

**Mirzəbəyli İ.** Yazıldı tarixə bir qızıl xətlə Şuşanın işğaldan qurtulan günü : Pənahəli xanın şəhəri haqqında ən gözəl şeiri Azərbaycan əsgəri yazdı // Xalq qəzeti. - 2020. - 11 noyabr. - № 234. - S. 14.

**Muğanlı N.** Şuşanın dağları bizi gözləyir... : Sinəsi ay-ulduzlu üçrəngli bayrağımız tezliklə Qarabağın mənəvi paytaxtı Şuşanın qədim qala bürcündə dalğalanacaq // İki sahil. - 2020. - 22 oktyabr. - № 187. - S. 29.

**Muğanlı N.** Şuşa Vaqif dünyası: Dünən, bu gün, sabah... // İki sahil. - 2021. - 2 sentyabr. - № 157. - S. 9.

**Muğanlı N.** Şuşaya gedən yollar da müqəddəsdir // İki sahil. - 2021. - 12 fevral. - № 27. - S. 13.

**Muradov V.** Şuşa Qafqazın konservatoriyası, Azərbaycanın mədəniyyət mərkəzlərindən biridir : Qarabağın xalça paytaxtı yeni inkişaf mərhələsinə qədəm qoyur // Xalq qəzeti. - 2020. - 26 noyabr. - № 247. - S. 7.

**Musayeva Y.** Şuşa dastanı : Xarıbülbülün danışdığı 270 yaşlı gerçək nağıl // Azərbaycan : qəzet. - 2022. - 8 yanvar. - № 3. - S. 3.

**Müşfiq Ş.** Salam, Şuşa... Yuxularımız çin oldu! // 525-ci qəzet. - 2020. - 11 noyabr. - № 150. - S. 12.

**Nəcəfli G.** Qarabağın incisi - Şuşa məxfi planlarda // Mədəniyyət. - 2020. - 11 dekabr. - № 92. - S. 6.

**Nəcəfxanlı Ə.** "Səndə vardır özgə lətafət, Şuşa!" // Xalq qəzeti. - 2020. - 15 noyabr. - № 238. - S. 8.

**Nəcəfxanlı Ə.** Yurdun sinəsində ürəkdir Şuşa // Xalq qəzeti. - 2021. - 5 sentyabr. - № 188. - S. 3.

**Nuruqızı S.** Dağ başında Şam Şuşa // Ulduz. - 2021. - N 2 (621). - S. 19-21.

**Paşayeva Q.** Bayraqlaşan Şuşam, şuşalaşan bayrağım... // Xalq qəzeti. - 2020. - 12 noyabr. - № 235. - S. 8.

**Səlimov Ş.** Şuşa simfoniyası : xüsusi müxbirin ümumi xatirələri // Mədəniyyət : jurnal. - 2020. - № May/İyun. - S. 14-19.

**Rəhimov N.** Əziz Şuşa, biz qayıtmışıq! : Şuşalı müəllimlər doğma yurdda keçəcəkləri ilk dərsi səbirsizliklə gözləyirlər // Azərbaycan Müəllimi. - 2020. - 13 noyabr. - № 38. - S. 13.

**Rza Z.** Şuşa Azərbaycandır! // İki sahil. - 2021. - 8 may. - № 82. - S. 15.

**Şıxıyeva S.** Nisgilli könüllərin tərcümanı Şuşa : Qarabağ şairlərinin şeirləri əsasında // Ədəbiyyat qəzeti. - 2020. - 14 noyabr. - № 50. - S. 18-19.

**Şırlanlı Ə.** Dünyanı heyrətləndirən mədəniyyət ocağı - Şuşa... // Respublika. - 2021. - 5 mart. - № 50. - S. 6.

Şuşa **Azərbaycanın mədəniyyət** paytaxtıdır // Azərbaycan : qəzet. - 2021. - 13 fevral. - № 33. - S. 6.

Şuşa **qalasının əksi** olan 112 yaşlı açıqca // Mədəniyyət. - 2020. - 13 noyabr. - № 84. - S. 7.

Şuşa **şəhərinin Azərbaycanın** mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (7 may 2021-ci il) // Xalq qəzeti. - 2021. - 8 may. - № 97. - S. 1.

Şuşa **şəhəri -** Azərbaycanın mədəniyyət paytaxtı // Savalan. - 2022. - 11-17 yanvar. - № 1. - S. 5

Şuşa **- Azərbaycanın** mədəniyyət incisi // Savalan. - 2021. - 16-22 noyabr. - № 37. - S. 5

Şuşa**da xalq oyunları** // Mədəniyyət : qəzet. - 2021. - 17 mart. - № 20. - S. 4.

Şuşa**da yaranan xalq** mahnıları // Mədəniyyət : qəzet. - 2021. - 4 iyun. - № 41. - S. 1, 6.

Şuşa**nın bazarları** // 525-ci qəzet. - 2021. - 5 iyun. - № 98. - S. 23.

Şuşa**nın ədəbi məclisləri** // 525-ci qəzet. - 2021. - 8 may. - № 82. - S. 16.

**Tahirli A.** Mənəvi varlığımızın müqəddəs simvolu - Şuşa // 525-ci qəzet. - 2020. - 11 noyabr. - № 150. - S. 13.

**Turan T.** Şuşanın səsi // Ulduz. - 2021. - N 2 (621). - S. 30.

**Vəliyev V.** Şuşa xalqımızın qeyrət rəmzidir // Respublika. - 2022. - 13 yanvar. - № 7. - S. 7.

**Vəliyeva N.** Azərbaycanın milli ruhunu yaşadan Şuşa! // Respublika. - 2021. - 2 aprel. - № 66. - S. 6.

**Vəliyeva T.** Cıdır düzü sənsiz qaldı... : Şuşa şəhidi Rövşən Həsənovun əziz xatirəsinə // 525-ci qəzet. - 2019. - 4 sentyabr. - № 120. - S. 22.
**Zaman E.** Şuşanın işğaldan azad edilməsi hərb tarixində ən mükəmməl taktiki döyüşdür // İki sahil. - 2020. - 9 dekabr. - № 220. - S. 21.

**Zülfüqarov R.** 270 yaşın mübarək, əziz Şuşa! // İki sahil. - 2022. - 22 yanvar. - № 12. - S. 29.

# Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**